RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 08 (9463) 16 YANVAR 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# 240 çarpayı, 903 otaq, 17 şöbə, 80 palata...



## Prezident İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib

**Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Sonra Bakının Fətəli xan Xoyski küçəsi, 99 ünvanında yerləşən hospital kompleksi barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, hərbi hospitalın köhnə binası XX əsrin 70-ci illərində inşa olunub. Yeni hərbi hospitalda ən son elmi-texniki nailiyyətlərə və müharibə təcrübəsinə əsaslanan tibbi müayinə və müalicə imkanları yaradılıb. Dünyanın qabaqcıl ölkələrində istehsal olunan tibbi avadanlıqlarla təchiz edilmiş hərbi hospitalın ürək-damar cərrahiyyəsi, invaziv kardiologiya, nevrologiya və digər tibbi fəaliyyət sahələri xəstələrə ən yüksək səviyyədə çoxfunksionallı xidmət göstərəcək.

→ 4

## Bu seçkilər bizə yeni siyasi güc verəcək

### Bütöv Azərbaycanda səsvermənin keçirilməsi böyük xoşbəxtlikdir



Uğurlu siyasi gedişlər nəticəsində əldə etdiyimiz qələbələr bu gün bizə Qarabağ və Şərqi Zəngəzurda yeni yaşayış məntəqələri tikməyə, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasına imkan verir. Bu o deməkdir ki, Azərbaycan dövləti tamam yeni reallıq formalaşdırıb. Bu yeni reallıq yeni dövrün başlanğıcıdır. Təbii ki, yeni mərhələyə keçid edərkən prezident seçkilərinin keçirilməsi də zəruridir. Çünki yeni seçkilərin özü də növbəti mərhələnin başlanğıcı olmalıdır.

→ 8

## Bərabər təşviqat imkanları, bərabər təbliğat şəraiti

### "Azərbaycan" qəzetində prezidentliyə namizədlərin ödənişsiz təşviqat ardıcıllığını müəyyənləşdirən püşkatma keçirildi

"Azərbaycan" qəzeti seçki prosesinin dinamikliyini nəzərə alaraq, prezidentliyə namizədlər üçün digər ödənişsiz təşviqat imkanı yaradır. Belə ki, prezidentliyə namizədlərin görüşləri, çıxışları və digər təbliğat fəaliyyətləri də bərabərlik qorunmaqla, qəzetdə ödənişsiz əsaslarla dərc ediləcək.

Sonra namizədlərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə qəzetdə dərc ediləcək ödənişsiz təşviqat materiallarının ardıcıllığını müəyyənləşdirən püşkatma keçirilib. Püşkatmanın nəticəsinə əsasən dərc ardıcıllığı belə müəyyənləşdirilib:

**1. Elşad Musayev**
**2. Fuad Əliyev**
**3. Fazil Mustafa**
**4. Zahid Oruc**
**5. İlham Əliyev**
**6. Qüdrət Həsənquliyev**
**7. Razi Nurullayev**

→ 8

## *Azərbaycan -* yaxın gələcəyin "yaşıl" ölkəsi

Ölkəmiz indiyə kimi bir çox belə tədbirləri uğurla təşkil edib, bu sahədə mükəmməl nümunələr, üstün meyarlar yaradıb və təbii ki, zəngin təcrübə toplayıb. Ötən il Beynəlxalq Astronavtika Konqresi Bakıda böyük müvəffəqiyyətlə keçirildi. Bu mötəbər beynəlxalq tədbirin 50 ildən sonra ikinci dəfə Azərbaycan paytaxtında təşkil olunması ona xüsusilə böyük tarixi dəyər qatırdı. 50 il əvvəl sovet, bu gün isə müstəqil Azərbaycanın paytaxtı olan Bakı bu mötəbər tədbirə uğurla evsahibliyi etdi və konqres bütün dünyada böyük maraq doğurdu.




COP29-a gəlincə isə bu, indiyə qədər keçirilmiş tədbirlərin ən genişmiqyaslısı olacaq. Bununla bağlı müşavirədəki çıxışı zamanı dövlətimizin başçısı tədbirin əhatə dairəsi barədə əyani təsəvvür yaratmaq üçün maraqlı bir müqayisə aparıb: "Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

→ 9

## "Əsrin müqaviləsi"nin daha bir müjdəsi

### AÇG-nin yenilənmiş sazişi üzrə ilk hasilat gözlənilir

ACE layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişə əsasən həyata keçirilir. Saziş 2017-ci il sentyabrın 14-də imzalanb, Milli Məclis tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olunub və 2019-cu ildə yeni layihə üzrə tikinti işlərinə start verilib. Bununla da AÇG-nin işlənilməsində yeni dövr başlanıb.

Yeni sazişlə nəhəng AÇG blokunun işlənilməsi 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Saziş ölkəmiz üçün daha da əlverişli şərtlərlə imzalandı, baxmayaraq ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" də Azərbaycanın maraqlarını tam təmin edirdi. Sazişin "Yeni əsrin müqaviləsi" adlandırılması da təsadüfi deyil. Çünki ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontrakt böyük əhəmiyyət daşıyır.



→ 10

## Paşinyan mediaya qarşı repressiyanı gücləndirib

### Hayastan kriminal şəxslərin neofaşizm yuvasına çevrilib

Hayastanda polisin fəaliyyəti, o cümlədən söz azadlığı, qadınların, fiziki imkanları məhdud şəxslərin hüquqları sahəsində bir sıra problemlər var. "Human Rayts Votç" təşkilatının ötən gün yaydığı hesabatda bildirilib ki, Hayastanda hüquq-mühafizə orqanlarının sui-istifadələrinə görə effektiv cavabdehliyin olmaması davam edən problemdir. Hesabata görə, ölkədə diffamasiya dekriminallaşdırılsa da, jurnalistlər və media siyasətçilərin və özəl şirkətlərin hədəfinə çevrilməkdə davam edir. Medianı hüquqi mübarizəyə sürükləyir, ağır maliyyə cərimələri ilə hədələyirlər.

→ 12

## Kraliça taxt-tacdan imtina etdi

### Danimarkanın yeni kralı II Marqretin oğlu X Frederik oldu

X Frederik kral kimi xalqa etdiyi ilk müraciətində bildirib: "İnsanları bir araya gətirərək sabahın kralı olacağıma ümid edirəm. Bu mənim bütün həyatım boyu yanaşdığım, qürurla, hörmətlə və sevinclə öz üzərimə götürdüyüm bir vəzifədir".

→ 12




2024-cü il fevralın 7-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərində

# cənab İlham Əliyevin seçki platforması

# QALİB XALQIN QALİB LİDERİ!

**Hörmətli seçici!**

**2024-cü il fevralın 7-də Azərbaycan Respublikasında Prezident seçkiləri keçiriləcək.**

**Yeni Azərbaycan Partiyası növbəti yeddi ilə cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyini irəli sürmüş, bu təşəbbüs ölkəmizdə fəaliyyət göstərən çoxsaylı ictimai təşkilatlar tərəfindən dəstəklənmişdir.**

**2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Son 20 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.**

**2020-ci il sentyabrın 27-də Ermənistanın davamlı hərbi təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində 30 il ərzində xalqımızın qarşısında duran ən mühüm problem - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tam bərpası məsələsi həll edilmişdir.**

**Hazırda həm ölkəmizdə, həm də regionumuzda yaranmış yeni reallıqlar aydın şəkildə göstərir ki, düşünülmüş, qətiyyətli, prinsipial və milli maraqlara əsaslanan siyasət, bacarıqlı və səmərəli idarəçilik, cəmiyyətin vahid məqsəd və milli ideya ətrafında sıx birliyi və həmrəyliyi sayəsində ən mürəkkəb məsələlərin həllinə nail olmaq mümkündür.**

**Bu gün Azərbaycan xalqı formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoymuşdur. Yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin, Böyük Qayıdışın davam etdirilməsi, təhlükəsizliyin təmin olunması və müasir ordu quruculuğu, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması, cəmiyyətin rifahının yüksəldilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, müstəqil xarici siyasət sayəsində Azərbaycanın beynəlxalq mövqelərinin daha da gücləndirilməsi, cəmiyyət həyatında şəffaflığın və ictimai iştirakçılığın, həmçinin ölkədə mövcud siyasi dialoqun dərinləşdirilməsi, zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və digər məsələlər həyata keçirilən siyasətin prioritet istiqamətləri olacaqdır.**

**Əldə olunmuş nailiyyətlərə əsaslanaraq uzunmüddətli milli prioritetləri reallaşdırmaq üçün növbəti yeddi ildə qarşıya qoyulmuş hədəfləri əks etdirən seçki platformasını ictimaiyyətin diqqətinə təqdim edirik. İnanırıq ki, yaranmış yeni reallıqlar fonunda bu mürəkkəb missiyanın həyata keçirilməsi üçün siz cənab İlham Əliyevi dəstəkləyəcək, bununla da gələcək tərəqqi və rifahımıza dəyərli töhfənizi verəcəksiniz.**

## Hər bir vətəndaşın rifahının davamlı yaxşılaşdırılması

Azərbaycan Respublikasında vətəndaşların rifahının davamlı yaxşılaşdırılması prioritet vəzifə müəyyən edilmiş, həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur.

2003-2023-cü illərdə dövlətin sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox artmış, orta aylıq nominal əməkhaqqı isə 12 dəfə yüksələrək 923,1 manata çatmışdır. Son beş ildə 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmuş, minimum pensiya məbləği 2,5 dəfə, orta pensiya məbləği 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişləri 5 dəfəyə yaxın artmışdır.

Ötən dövrdə 2,7 milyondan çox yeni iş yerinin yaradılması sosial siyasətin ən böyük uğurlarındandır. Yüksələn gəlirlər sayəsində banklara qoyulan əmanətlərin həcmi 50 dəfədən çox artaraq 12,9 milyard manatı ötmüşdür.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqəsi - əlillər, müharibə veteranları, aztəminatlı vətəndaşlar daim diqqət mərkəzində olmuş, şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14,8 min mənzil və fərdi ev, 7600 avtomobil verilmişdir.

2003-2023-cü illər ərzində qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ümumilikdə 8,7 milyard manat, o cümlədən dövlət büdcəsindən 5,6 milyard manat vəsait ayrılmışdır.

Özünüməşğulluq proqramının genişləndirilməsi, həssas qrupların kiçik biznesə çıxışının dəstəklənməsi təmin edilmiş, 79 minədək vətəndaş özünüməşğulluq proqramından faydalanmışdır.

2023-cü ildə 2003-cü ilə nisbətən işsiz əhalinin sayı 28,6 faiz, yoxsul əhalinin sayı isə 7 dəfə azalmışdır.

**2024-2031-ci illərdə əhalinin rifah halının davamlı yaxşılaşdırılması sahəsində qarşıda aşağıdakı hədəflər dayanır:**

- Hər kəsə çəkdiyi zəhmətin daha layiqli dəyərini alması üçün imkanlar yaradılması;
- Dövlətin təqdim etdiyi imkanlardan bərabər faydalanmaq üçün yeni mexanizmlər və innovativ həllərin tətbiq olunması;
- Dayanıqlı və yüksək gəlirli iş yerlərinin ümumi məşğulluğa töhfəsinin davamlı artırılması;
- Məşğulluqda yüksək bilik və bacarığı olan peşəkarların payının əhəmiyyətli dərəcədə artırılması;
- Hər bir vətəndaşın özəl sektorda biliyinə, bacarığına və marağına uyğun iş seçimi imkanlarının artırılması;
- Cəmiyyətin ehtiyacı olan hər bir üzvünün davamlı və əlçatan qayğı ilə tam əhatə edilməsi, hər bir vətəndaşın sosial xidmətlərə əlçatanlığının davamlı yaxşılaşdırılması;
- Dövlət qayğısı və sosial müdafiə sahəsində ünvanlılığa diqqətin artırılması, əhalinin sosial təminatının gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması.

## Qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan dayanıqlı iqtisadi artım

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-2023-cü illərdə qazanılan iqtisadi uğurlar ölkəmizin ardıcıl yüksəlişini təmin etmişdir. Həyata keçirilən islahatlar nəticəsində yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat qurulmuş, Azərbaycan iqtisadiyyatı 3,6 dəfə artaraq 123 milyard manatı ötmüşdür. Milli iqtisadiyyatın strukturu əhəmiyyətli dərəcədə yaxşılaşmış, qeyri-neft-qaz sektoru 3,5 dəfə, qeyri-neft-qaz sənayesi 4,3 dəfə, kənd təsərrüfatı isə 2,1 dəfə böyümüşdür. İnformasiya və rabitə sektorunda yaradılmış əlavə dəyər 20,9 dəfə, turizm və ictimai iaşə sektorunda 17,5 dəfə, nəqliyyat sektorunda 4,1 dəfə artaraq qeyri-neft-qaz iqtisadiyyatının inkişafına mühüm töhfə vermişdir.

Azərbaycan özünün iqtisadi müstəqilliyini tam təmin edən ölkəyə çevrilmiş, dövlətin maliyyə imkanları əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. 2003-cü ildə 1,6 milyard ABŞ dolları təşkil edən strateji valyuta ehtiyatları 43 dəfə artaraq 68,5 milyard dollara çatmışdır.

Dövlət büdcəsi 29 dəfədən çox artaraq sosial rifahla yanaşı, iqtisadi fəallığın da dəstəklənməsində aktiv rol oynamış, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə 318,9 milyard ABŞ dollarına yaxın investisiya cəlb edilmişdir.

İqtisadiyyat sürətlə şaxələnmiş və daxili istehsalın qlobal dəyər zəncirinə effektiv inteqrasiyası təmin edilmişdir. Xarici ticarət dövriyyəsi 10 dəfəyə yaxın artmış, qeyri-neft-qaz ixracı 3,3 milyard ABŞ dollarını üstələmişdir.

Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu beynəlxalq enerji və nəqliyyat-logistika layihələri iqtisadi inkişafın sürətləndirilməsinə, ölkəmizin beynəlxalq aləmdəki mövqeyinin güclənməsinə xidmət etmişdir.

Azərbaycanda rəqəmsal texnologiyalara keçid sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. MDB məkanında ilk olaraq məhz Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzi təsis edilmişdir.

Prezidentliyə namizədin ödənişli təşviqat materialı

# QALİB XALQIN QALİB LİDERİ!

# İLHAM ƏLİYEV



Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sənaye, müasir texnologiya və innovasiya sahələrində böyük uğurlara malik ölkəmizin dünya miqyasında nüfuzunun artdığını bir daha nümayiş etdirmişdir.

Azərbaycan öz peyklərini orbitə çıxarmaqla dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer almışdır.

**2024-2031-ci illərdə sürətli və dayanıqlı inkişaf edən biliktutumlu iqtisadiyyatın gücləndirilməsi üçün qarşıda aşağıdakı hədəflər dayanır:**

- Sosial-iqtisadi modelin məzmununu və strukturunu keyfiyyətcə yeni prinsiplər əsasında qurmaqla, iqtisadiyyatın sürətli və dayanıqlı artımının təmin edilməsi;
- İqtisadi idarəetmənin müasirləşdirilməsi, inkişafın hərəkətverici qüvvəsi olan yaradıcı, rəqabətqabiliyyətli və məhsuldar sahibkar sinfinin gücləndirilməsi, yeni bilik və texnologiya gətirən özəl təşəbbüslərin, o cümlədən birbaşa xarici investisiyaların təşviq olunması;
- Daha sağlam rəqabətə əsaslanan, maneəsiz, tam şəffaf və sağlam biznesin inkişafına hərtərəfli dəstək göstərilməsi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi;
- İqtisadiyyatın müxtəlif sektorları, o cümlədən kənd təsərrüfatının, emal sənayesinin, bərpaolunan energetikanın, tibbin və turizmin müqayisəli üstünlüyə malik sahələrində dəyər zəncirinin formalaşdırılması;
- Ölkənin "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakının və bu əsasda tranzit-logistika potensialının genişləndirilməsi;
- Kosmik sənayenin inkişafının davam etdirilməsi, yeni peykin orbitə çıxarılması;
- İnnovasiya yönümlü ideyaların təşviqi üçün dövlət dəstəyinin gücləndirilməsi;
- Əhalinin bütün dövlət xidmətlərinə çıxışının asanlaşdırılması və xidmətlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi;
- Ölkədə su ilə təminat səviyyəsinin yaxşılaşdırılması və içməli suya əlçatanlığın artırılması tədbirlərinin davam etdirilməsi;
- Ekoloji tarazlığın qorunması, bu məqsədə xidmət edən təşəbbüslərin dəstəklənməsi, ekoloji təmiz iqtisadi fəaliyyətin təşviq edilməsi.

## İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Milli Prioritetinin icrasının təmin olunması məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair l Dövlət Proqramı" qəbul edilmiş və hazırda icra olunur.

Ötən müddət ərzində işğaldan azad edilmiş ərazilərin bərpasına dövlət büdcəsindən 12 milyard manat vəsait yönəldilmiş, mühüm yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarla yaşayış məntəqəsinin təməli qoyulmuş və artıq bir sıra şəhər, kənd və qəsəbələrdə 1186 ailənin və ya 4691 nəfərin məskunlaşması təmin edilmişdir.

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək 34500 ailənin doğma torpaqlarda layiqli şəkildə yaşayışı təmin ediləcək, həmin ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası istiqamətində mühüm addımlar atılacaqdır.

**2024-2031-ci illərdə işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışın təmin olunması və sosial-iqtisadi quruculuq sahələrində aşağıdakı əsas hədəflər nəzərdə tutulur:**

- Ərazilərin minalardan təmizlənməsinin davam etdirilməsi;
- Təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili;
- Ərazilərdə müasir yaşayış məntəqələrinin - şəhər, qəsəbə və kəndlərin tikintisi;
- Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması;
- Əhalinin geri qayıdışının və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu məqsədlə ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası;
- Ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası;
- Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

## Milli maraqlara söykənən müstəqil xarici siyasət

Ötən illər ərzində Azərbaycanın xarici siyasətində mühüm nailiyyətlər əldə edilmiş, ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlmişdir.

Həyata keçirilən hücum diplomatiyası və müxtəlif beynəlxalq təşkilatlar tərəfindən ölkəmizi dəstəkləyən sənədlərin qəbul edilməsi Azərbaycanın mövqeyini daha da gücləndirmiş və legitim addımlar atması üçün daha əlverişli imkanlar yaratmışdır.

Xalqımızın əbədi fəxarət mənbəyinə çevrilən 2020-ci il Vətən müharibəsində qazanılmış tarixi Zəfər təkcə döyüş meydanında deyil, həm də diplomatik cəbhədə Azərbaycanın gücünü və potensialını aydın göstərmişdir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və 27 il kağız üzərində qalmış qətnamələrin icrasını Azərbaycan özü təmin etmişdir.

Vətən müharibəsində Qələbə qazanmaqla regionda yeni reallıqlar yaratmış ölkəmiz həm də siyasi müstəvidə bu reallıqların beynəlxalq aləm tərəfindən qəbul edilməsinə nail olmuşdur. Vətən müharibəsindən sonra bəzi xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana qarşı aparılan kampaniyanın qarşısı qətiyyətlə alınmışdır.

Vətən müharibəsində şanlı Zəfər qazanmış Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması üçün beynəlxalq hüquqa əsaslanan 5 əsas prinsipi təqdim etmişdir.

Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınmış, bir çox uğurlu beynəlxalq layihələrə imza atmış, təşəbbüslərlə çıxış etmiş, regional liderliyini daha da möhkəmləndirmişdir. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, 2019-2023-cü illərdə isə BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edərək bir sıra institusional yeniliklərin müəllifi olmuş və Hərəkatın beynəlxalq çəkisinin artmasında əhəmiyyətli rol oynamışdır.

Azərbaycan COVID-19 pandemiyası ilə qlobal mübarizədə ön sıralarda olmuş, BMT Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı xüsusi sessiyasının çağırılmasına və "vaksin millətçiliyi"nə qarşı qətnamələrin qəbul edilməsinə nail olmuşdur.

Böyük Türk dünyasının ayrılmaz hissəsi olan Azərbaycan Türk dövlətləri arasında əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə, Türk Dövlətləri Təşkilatının gücləndirilməsinə dəyərli töhfəsini vermişdir.

Dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un cari ildə ölkəmizdə keçirilməsinə dair yekdil qərarın qəbul edilməsi də beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmət və etimadının bariz göstəricisidir.

**2024-2031-ci illərdə xarici siyasət sahəsində qarşıda aşağıdakı hədəflər dayanır:**

- Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi;
- Azərbaycan tərəfindən irəli sürülmüş 5 əsas prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması;
- Cənubi Qafqazda davamlı sülhün bərqərar olması və onun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi ilə bağlı səylərin davam etdirilməsi;
- Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması;
- Azərbaycanın geosiyasi təhlükələrdən və hibrid təhdidlərdən qorunması;
- Azərbaycanın qeyri-münaqişə gündəliyinin formalaşdırılması;
- Qonşu ölkələrlə ikitərəfli münasibətlərin möhkəmləndirilməsi;
- Türk dövlətləri ilə əlaqələrin və Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsi;
- Strateji tərəfdaşların və müttəfiqlərin sayının artırılması;
- Azərbaycanın iqtisadi və enerji diplomatiyasının inkişaf etdirilməsi;
- Alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına "Yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi;
- Azərbaycanın nəqliyyat və logistika mərkəzi rolunun daha da gücləndirilməsi;
- Beynəlxalq təşkilatlarda fəal iştirakın təmin edilməsi;
- Multikulturalizm və tolerantlıq kimi dəyərlərə sadiq qalaraq, dünyada hökm sürən islamofobiya və neokolonializm meyillərinə qarşı mübarizə aparılması.

## Milli təhlükəsizlik və müasir ordu quruculuğu

Dəyişən qlobal və regional təhlükəsizlik mühitinə müxtəlif amillərin artan təsiri ilə əlaqədar Azərbaycanın milli maraqlarına mümkün təhdidlərin adekvat cavablandırılması və ölkənin davamlı inkişafı üçün zəruri şəraitin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilmişdir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət bu sahədə qarşıda duran vəzifələrin yüksək səviyyədə həllini təmin etmiş, Azərbaycan qlobal və regional təhlükəsizliyə, sülhün və ədalətin qorunmasına, davamlı inkişaf üçün əməkdaşlığa mühüm töhfə verən ölkəyə çevrilmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həyata keçirilən quruculuq fəaliyyəti nəticəsində Azərbaycan Ordusu dünyanın güclü orduları sırasına daxil olmuşdur. Ölkənin xarici hərbi-texniki asılılığının azaldılması məqsədilə qurulmuş milli müdafiə sənayesi ildən-ilə inkişaf etdirilir. Milli təhlükəsizlik sahəsində ölkəmizin qarşısında duran kompleks vəzifələrin son 20 il ərzində tam və effektiv həllinin nəticəsi olaraq Azərbaycan Ordusu 44 gün ərzində Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyaraq torpaqlarımızı işğaldan azad etdi. Bununla da xalqımıza, ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı ən böyük təhdid aradan qaldırıldı.

Bu gün milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, ictimai, iqtisadi, sosial, ekoloji, informasiya, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi dövlətimizin və cəmiyyətimizin mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir. Buna görə də Azərbaycanda daxili təhlükə mənbələri mövcud deyildir, əsas təhdid və təhlükələr ölkə sərhədləri xaricində formalaşır.

**2024-2031-ci illərdə milli təhlükəsizlik və müasir ordu quruculuğu sahəsində qarşımızda aşağıdakı hədəflər dayanır:**

- Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması;
- Müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi;
- Hərbi quruculuq işlərinin və müasir ordu quruculuğu prosesinin davam etdirilməsi;
- Ölkədə ictimai-siyasi sabitliyin, qanunun aliliyinin, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin hər cür təsirlərdən qorunması;
- Təhlükəsiz informasiya məkanının inkişaf etdirilməsi, ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsi;
- Regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı tədbirlərin davam etdirilməsi və bu istiqamətdə səylərin dəstəklənməsi.

## İnnovativ və müasir təhsil, qabaqcıl səhiyyə

Azərbaycanda elm, təhsil və səhiyyə sahələrinin davamlı inkişafına dövlət qayğısı əhəmiyyətli dərəcədə artırılmışdır. Sözügedən sahələrdə infrastruktur müasirləşdirilmiş, insan kapitalı inkişaf etdirilmiş, bu məqsədlə dövlət əsaslı maliyyələşmə mexanizmi yaradılmışdır.

Dövlət büdcəsindən təhsilə ayrılan xərclər 17,6 dəfə artırılmış, müəllimlərin orta aylıq əməkhaqqı 830 manata çatdırılmışdır. Ölkədə məktəbəqədər təhsilin əhatə dairəsi davamlı olaraq genişləndirilmiş, bütün məktəb fondunun 80 faizi tam müasirləşdirilərək təhsilin maddi-texniki bazası gücləndirilmiş və 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmış, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması və yüksəkixtisaslı kadrların yetişdirilməsi məqsədilə gənclərin dünyanın ən qabaqcıl ali məktəblərində təhsil almasına dəstək göstərilmişdir.

Vətəndaşların sağlamlığının qorunması, göstərilən tibbi xidmətlərin səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi, əhalinin tibbi xidmətlərə və dərmanlara əlverişli şərtlərlə çıxışının təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindəndir. 2003-2023-cü illərdə dövlət büdcəsindən səhiyyə xərcləri 31,1 dəfə artırılmış, 70 faizdən çoxu regionlarda olmaqla 700-dən artıq səhiyyə müəssisəsində təmir və tikinti işləri aparılmış, 300-dək yeni Ailə Sağlamlıq Mərkəzi yaradılmışdır. Hazırda icbari tibbi sığorta üzrə xidmətlər zərfi 3300-dən artıq tibbi xidmət ilə hər bir vətəndaşı əhatə edir.

Nəticədə, ölkə əhalisinin sağlamlığı yaxşılaşmış, ana və uşaq ölümünün davamlı azalmasına nail olunmuş, ömür uzunluğu 76 yaşa yüksəlmişdir.

**2024-2031-ci illərdə təhsil və səhiyyə sahələrində aşağıdakı hədəflərə nail olunması qarşıya məqsəd qoyulmuşdur:**

- Hər bir vətəndaşın innovativ, müasir təhsilə və elmə çıxışı üçün dövlət dəstəyinin artırılması;
- Ölkədə bütün növ təhsil infrastrukturunun və kadr bazasının gücləndirilməsi, bu əsasda təhsil xidmətləri ixracının dəstəklənməsi;
- Bütün təhsil ocaqlarında tədqiqat mühitinin gücləndirilməsi, tədqiqat sahəsində nəşrlərin nüfuzunun artırılması;
- Elmi kəşflərin sənayeləşdirilməsinin təşviqi, məhsul və xidmətlər ixracında texnologiyanın tam milliləşdirilməsinə nail olunması;
- Təhsilin bütün səviyyələrində təhsilalanlara rəqəmsal biliklərin aşılanması, təhsil müəssisələrində İKT əsaslı infrastrukturun inkişaf etdirilməsi;
- Azərbaycanın müasir tibbi xidmətlər göstərən, keyfiyyətli dərman və tibbi texnologiyalar istehsal edən ölkələr sırasına daxil olması;
- Tibb elminin müxtəlif sahələrində müasir tədqiqatlar aparılmasının və tibbi yeniliklər əldə edilməsinin təşviqi;
- Müasir xəstəxana infrastrukturunun gücləndirilməsi, həkimlərin peşəkarlığının və motivasiyasının artırılması, bütün bölgələrdə eyni keyfiyyətli və əlçatan tibbi xidmətlərin inkişaf etdirilməsi.

## Müasir, milli köklərə bağlı, vətənpərvər gəncliyin inkişafı

Son 20 ildə Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafı, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində dövlət tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Bu sahədə normativ hüquqi baza müasir dövrün tələblərinə uyğun və dünyada mövcud müsbət təcrübəyə əsaslanaraq təkmilləşdirilmiş, gənclərə xidmət göstərən, müasir standartlara cavab verən infrastrukturun yaradılması və inkişaf etdirilməsi təmin olunmuşdur.

Bu dövr ərzində 32 "Gənclər evi" sosial xidmət müəssisəsi tikilmiş, ölkənin bütün inzibati ərazi vahidlərində Gənclərin İnkişaf və Karyera Mərkəzi nümayəndəliklərinin fəaliyyəti təşkil olunmuş, 30 Olimpiya İdman Kompleksi və onlarla digər idman qurğusu gənclərin və idman həvəskarlarının istifadəsinə verilmişdir. İdmana, idmançılara göstərilən diqqət və qayğı sayəsində təkcə Olimpiya medalçılarının sayı 47 nəfər olmuşdur.

Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili və karyera quruculuğuna xüsusi diqqət yetirilmişdir. Azərbaycanın və dünyanın aparıcı universitetlərində müxtəlif sahələrdə dövlət vəsaiti hesabına təhsil almış gənclərimiz Azərbaycan dövlətinin davamlı inkişafına öz töhfələrini verirlər.

İntellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis edilmişdir və hər il müntəzəm olaraq keçirilir.

Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sahəsində əldə edilmiş nailiyyətlər Vətən müharibəsində şanlı Zəfərimizi şərtləndirən əsas amillərdən biri olmuşdur.

Dövlətin xüsusi diqqəti nəticəsində könüllülük gənclərin həyat tərzinə çevrilmiş və institusionallaşdırılmışdır. Bu gün Azərbaycanda könüllülük hərəkatına qoşulmuş yüz minlərlə gənc cəmiyyətə təmənnasız xidmət göstərir.

**2024-2031-ci illərdə gənclər siyasəti sahəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:**

- Gənclər və idman sahəsində infrastrukturun daha da təkmilləşdirilməsi;
- Gənclərin elmə və təhsilə həvəsləndirilməsi;
- Gənclərin idmana və sağlam həyat tərzinə bağlılığının artırılması;
- Gənclərin sahibkarlıq bacarıqlarının daha da inkişaf etdirilməsi;
- Gənclərin ölkənin ictimai-siyasi həyatında rolunun artırılması;
- Könüllülük hərəkatının bütün ölkəni, o cümlədən işğaldan azad olunmuş əraziləri və orada yaşayan gəncləri əhatə etməsi.

## Demokratik inkişaf, insan hüquq və azadlıqlarının təmin edilməsi

İnsan hüquq və azadlıqlarının təmin edilməsi sisteminin səmərəliliyinin daha da artırılması, bu istiqamətdə məqsədyönlü ardıcıl siyasətin aparılması ölkəmizdə hər kəsin hüquq və azadlıqlarının qorunmasını yeni səviyyəyə qaldırmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutulmaqla, müvafiq milli qanunvericiliyin təkmilləşdirilməsi və hüquqi təminatların genişləndirilməsi prosesi uğurla davam etdirilir.

Məhkəmə-hüquq sistemində qabaqcıl beynəlxalq standartlara uyğun islahatlar aparılmış, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, məhkəmələrin kadr potensialının inkişaf etdirilməsi, insanların keyfiyyətli hüquqi yardım almaq imkanlarının artırılması ilə bağlı təsirli tədbirlər görülmüşdür. Eyni zamanda insan hüquq və azadlıqlarının təmin edilməsi üçün məhkəmədənkənar mexanizmlər də gücləndirilmişdir.

**2024-2031-ci illərdə insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində qarşıda aşağıdakı hədəflər dayanır:**

- İnsan hüquq və azadlıqlarının təmin edilməsi və qorunması sahəsində fəaliyyətin davamlı olaraq inkişaf etdirilməsi;
- İnsan hüquqlarının təşviqi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi;
- Dövlət orqanlarının fəaliyyətində insan hüquqlarının təminatının gücləndirilməsi;
- Vətəndaş cəmiyyəti təsisatlarının fəaliyyətinə dövlət dəstəyinin davam etdirilməsi;
- Keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş doğma yurdlarına təhlükəsiz və ləyaqətlə qayıtmaq hüququnun təmin olunması;
- Tolerantlıq və multikulturalizm dəyərlərinin təşviqi;
- Sosial cəhətdən həssas əhali qruplarının hüquqlarının müdafiəsi və inklüzivliyin təmin olunması;
- Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnun milli səviyyədə təmin edilməsi.

Prezidentliyə namizədin ödənişli təşviqat materialı

# 240 çarpayı, 903 otaq, 17 şöbə, 80 palata...

## Prezident İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib





*Əvvəli 1-ci səh.*

Səkkiz mərtəbədən və köməkçi binalardan ibarət hərbi hospitalın inşası müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilib. Ümumi sahəsi 24.760 kvadratmetr olan 240 çarpayılıq binada 903 otaq, 17 şöbə, 80 palata mövcuddur. Hərbi dövrdə çarpayı sayının 700-ə çatdırılması imkanları vardır. Burada yaradılan Təcili Tibbi Yardım Mərkəzi durumu son dərəcə kritik olan xəstələrin 24 saat qəbulunu həyata keçirməyə imkan verəcək.

İl ərzində hərbi hospitalda 100-110 min xəstə ambulator, 17-20 min xəstə stasionar müalicə oluna bilər.

Hərbi hospitalın Cərrahiyyə şöbəsində quraşdırılan avadanlıqlar istənilən növ ağır əməliyyatları aparmağa imkan verir. Tibb ocağında 11 əməliyyatxanadan ibarət xüsusi blok yerləşir. Hospitalda uçuş heyətinin və dalğıcların müayinəsi və müalicəsi üçün respublikada ən müasir hiperbarik oksigenasiya avadanlığı (barokamera) quraşdırılıb.

Binada gözləmə, konfrans, yataq, yemək otaqları yaradılıb, intensiv terapiya və tibbi heyət üçün bölmələr fəaliyyət göstərir. DSX-də qadın hərbi qulluqçuların sayı nəzərə alınaraq hərbi hospitalda doğum mərkəzi də yaradılıb.

Hərbi hospitalın Laboratoriya şöbəsində ən yeni müayinə üsullarını özündə birləşdirən və tibbi tələblərə tam cavab verən dünyanın aparıcı şirkətlərinin laborator avadanlığı quraşdırılıb. Müalicə ocağı dövrün tələblərinə uyğun çağrı və nəzarət sistemləri ilə təmin olunub. Hərbi hospitalda klinik fəaliyyətin, yəni tibbi tədris işinin təşkili və ixtisaslı hərbi həkimlərin hazırlanması şəraiti yaradılıb.

Hərbi hospitalın yerləşdiyi 3 hektar ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq sahələri salınıb.

Sonda xatirə şəkli çəkdirildi.











## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddə 337, № 4, maddə 463, № 6, maddə 742, № 8 (I kitab), maddə 1126; Azərbaycan Respublikasının 2023-cü il24 oktyabr tarixli 1012-VIQD və 1016-VIQD nömrəli qanunları) 28-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.28.4-cü maddədə "Heyətin" sözü "Minimum heyət" sözləri ilə əvəz edilsin.

2. 28.5-ci maddədə "çirklənmənin qarşısının alınması" sözləri "çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyətin sığortalanması və ya "Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiyaya uyğun digər maliyyə təminatı" sözləri ilə əvəz edilsin.

3.28.11-ci maddədən "işçi" sözü çıxarılsın.

4. 28.12-ci maddədə "hazırlıq kursları sertifikatlarının" sözləri "xüsusi hazırlıq şəhadətnamələrinin" sözləri ilə əvəz edilsin.

5. 28.13-cü maddədə "Qeyd Kitabçasının" sözləri "qeyd kitabçasının" sözləri ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 28.23-cü və 28.24-cü maddələr əlavə edilsin:

| | |
|---|---|
| 28.23. Gəmi tarixinin fasiləsiz qeydlər sənədinin verilməsi | 65 manat |
| 28.24. Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən təlim-tədris mərkəzlərinə, habelə fiziki və hüquqi şəxslərə onların fəaliyyətinin beynəlxalq konvensiyaların tələblərinə uyğun olması haqqında Şəhadətnamənin verilməsi | 65 manat |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240, № 12, maddə 1392; 2023, № 1, maddə 14, № 2, maddə 207, № 3, maddə 338, № 7, maddələr 896, 904; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 97-ci maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

2. 98-ci maddə üzrə:

2.1. adında "işlərinə" sözü "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "görülən işlərə hamilə və üç yaşınadək uşağı olan qadınların," sözləri "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.3. 2-ci hissədə "görülən" sözü "yerinə yetirilən" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlar (bu Məcəllənin 242-ci maddəsi nəzərə alınmaqla), üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər gecə vaxtı yerinə yetirilən işlərə yalnız onların yazılı razılığı ilə cəlb edilə bilərlər.".

3. 166-cı maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri əlavə edilsin.

4. 242-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 242. Qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə və istirahət günlərində işə cəlb olunmasının, habelə ezamiyyətlərinin məhdudlaşdırılması**

1. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların yazılı razılığı ilə (hamilə və 3 yaşınadək uşağı olan qadınlara münasibətdə onların, habelə uşağın həyat və ya sağlamlığına təhlükə yaranmaması barədə həkim rəyi olduqda) yol verilir.

2. Bu maddənin 1-ci hissəsi 14 yaşınadək uşağı, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı övladlığa götürən qadınlara da şamil edilir.".

5. 254-cü maddə üzrə:

5.1. adında "işlərinə" sözü "vaxtı yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

5.2. 1-ci hissəyə "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddə 1485; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829, № 10, maddə 1125, № 12, maddələr 1366, 1379, 1389; 2023, № 1, maddələr 11, 19, № 2, maddə 210, № 3, maddə 337, № 4, maddə 463, № 6, maddə 742, № 8 (I kitab), maddə 1126; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1012-VIQD və 1016-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 9.1-2-ci maddə əlavə edilsin:

"9.1-2. Mülki işlər üzrə ilk dəfə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə ümumi məhkəməyə iddia ərizəsi ilə müraciət edən fiziki şəxslər bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş dövlət rüsumunun məbləğinin 10 faizini ödəməkdən azad olunurlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

## "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 623; Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1075-VIQD nömrəli Qanunu) 8.1.4-cü maddəsində "150 kVt-dan" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

## R.B.Əskərovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında ədəbiyyatşünaslıq və publisistika sahəsində səmərəli fəaliyyətinə görə Ramiz Baxşəli oğlu Əskərov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2024-cü il*

# Azərbaycanın və Polşanın XİN başçıları regional məsələləri müzakirə ediblər





Yanvarın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Polşa Respublikasının xarici işlər naziri Radoslav Sikorski ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı ikitərəfli və regional gündəlikdə duran məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov Polşa Respublikasının xarici işlər naziri vəzifəsinə təyinatı münasibətilə həmkarını təbrik edib. Azərbaycan və Polşa arasında ikitərəfli, o cümlədən çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıqdan bəhs edən nazir Ceyhun Bayramov iki ölkə arasında yüksəksəviyyəli dostluq, hörmət və strateji tərəfdaşlığın əhəmiyyətini vurğulayıb.

Azərbaycanla Polşa arasında siyasi, iqtisadi, energetika, alternativ enerji, humanitar və sair sahələr üzrə ikitərəfli münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında siyasi məsləhətləşmələr mexanizminin, habelə parlament diplomatiyasının əhəmiyyəti qeyd olunub. Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlığın irəlilədilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regional vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Azərbaycanın öz əraziləri üzərində suverenliyini bərpa etdikdən sonra sülh üçün geniş imkanlar yarandığı qeyd edilib.

Bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da inkişafı üçün əhəmiyyətli olduğu vurğulanıb.

Daha sonra qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qərbi Azərbaycan İcması Dunya Miyatoviçə etiraz məktubu göndərib

Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviçin ötən il oktyabrın 16-23-də Ermənistana və Azərbaycana səfəri ilə bağlı hesabat hazırlanıb. Bir sıra ciddi nöqsanlara yol verilmiş hesabatla bağlı Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli Dunya Miyatoviçə etiraz məktubu ünvanlayıb.

Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a daxil olan məktubda deyilir: "Əvvəla, Azərbaycana səfərinizə və 2023-cü il oktyabrın 23-də Ermənistandan olan azərbaycanlı qaçqınlarla görüşünüz zamanı nümayiş etdirdiyiniz səmimi münasibətə görə Sizə təşəkkür edirik. Sizin ruhlandırıcı sözləriniz, xüsusilə də "heç vaxt vaz keçməyin" tövsiyəniz bizim icmamızda dərin təsir buraxmışdı.

Bununla belə, biz Sizin son hesabatınızın müstəsna olaraq bir etnik qrupa aid məsələni - özü də təhrif olunmuş şəkildə əhatə etməsini, bizim məsələmizə isə orada qəsdən yer ayrılmamasını dərin təəssüf və məyusluq hissi ilə qeyd edirik. Ermənistandan didərgin salınmış yüz minlərlə azərbaycanlıya, onların acınacaqlı vəziyyətinə, davam edən mübarizəsinə və onlarla keçirdiyiniz mühüm görüşünüzə istinad etməməyiniz nəinki məyusedicidir, həm də ədalət və qərəzsizlik prinsiplərinə ziddir. Bu nöqsan, sadəcə, bir diqqətsizlik deyil, qərəzliliyə, etnik və dini ayrı-seçkiliyə dair klassik nümunədir.

Xatırlatmaq yerinə düşər ki, biz Sizin regiona səfərinizə dair Avropa Şurasının 2023-cü il oktyabrın 26-da verdiyi və bizim məsələmizə istinad edilmədiyi press-relizindən dərhal sonra - oktyabrın 27-də Sizə məktub göndərərək narahatlığımızı bildirmişdik. Göründüyü kimi, bizə qarşı qərəzli münasibət davamlı xarakter daşıyır.

Sizin hesabatınız Ermənistanı yalnız ümumi şəkildə geri qayıtmaq hüququna hörmət etməyə çağırır. Lakin kimin geri qayıtmaq hüququndan söhbət getdiyini göstərmir. Biz geri qayıtmaq hüququ ilə bağlı bu ümumi çağırışı dəyərləndirsək də, bu çağırışın kontekstinin qeyri-müəyyənliyi onun dəyərini və təsirini azaldır.

Azərbaycanlı qaçqınlarla görüşünüz zamanı nümayiş etdirdiyiniz həvəsləndirici və dəstəkləyici tonla hesabatınızda işimizə baxılması arasındakı kəskin ziddiyyət bizi dərindən məyus və narahat edir. Bu, insan haqları və ədalətin qalası kimi dayanmalı olan Avropa Şurası İnsan Hüquqları Komissarı ofisinin, əslində, çox düzgün olaraq "Ermənistan+" adlandırılan anti-Azərbaycan dairələrin əlində alət olduğunu söyləməyə əsas verir.

Azərbaycanlı qaçqınların dərdini örtbasdır etmək onların qarşısında naxələflik olmaqla bərabər, Avropa Şurasına olan qalan etimadı və onun missiyasını sarsıdır. Bu Sizin mötəbər ofisinizin öz işində rəhbər tutmalı olduğu ədalət və qərəzsizlik prinsiplərinə xəyanətdir.

Yekun olaraq bildirmək istərdik ki, bizə "heç vaxt vaz keçməməyi" tövsiyə etsəniz də, Siz ən azı bu halda öz prinsiplərinizə etinasız yanaşmaqla məhz bunu etdiniz. Buna baxmayaraq, biz haqq-ədalət və Vətənimizə qayıtmaq hüququ uğrunda mübarizəmizdən heç vaxt vaz keçməyəcəyik. Məhz bu qətiyyətlə biz Sizdən öz vəzifələrinizi yerinə yetirməyi və uzun müddətdir ki, məlum bədnam dairələr tərəfindən susdurulmağa çalışılan haqq işimizi hesabatınızda əks etdirmək üçün ona yenidən baxmağı tələb edirik".

# Yeni gələn çağırışçıların hərbi hissələrdə qəbulu davam edir

Azərbaycan Prezidentinin müvafiq Sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu prosesi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xidmətə yeni gələn çağırışçılar hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçir, tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunur, sonra mövsümə uyğun hərbi geyim və digər təminat növləri ilə təmin edilirlər.



Bütün hərbi hissələrdə şəxsi heyətin qidalanmasına xüsusi diqqət yetirilir. Əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara tam riayət olunmaqla yüksək kalorili, keyfiyyətli yeməklər hazırlanır. Çağırışçılar hərbi xidmətin xüsusiyyətləri, təhlükəsizlik qaydaları, nizamnamələrin tələbləri barədə ətraflı məlumatlandırılırlar. Onlarla maarifləndirici və fərdi söhbətlər aparılaraq psixoloji xüsusiyyətləri öyrənilir. Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq çağırışçılarla fərdi hazırlıq məşğələləri keçirilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 6 **QƏRAR** Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nda, 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda, 2000-ci il 20 noyabr tarixli 207 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"nda, 2000-ci il 13 dekabr tarixli 220 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları"nda və 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-si il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın 13.1.26-cı yarımbən-dində "ərzaq" sözü "qida" sözü ilə, 13.3.4-cü yarımbəndində "ərzaqla, çörək məmulatları ilə" sözləri "qida məhsulları ilə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın II fəslinin 7.3-cü bəndinin ikinci abzasının ikinci cümləsində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin və həmin abzasdan ", o cümlədən şərablar və spirtli içkilərin" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 207 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəmir yolu nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.26-cı yarımbəndin üçüncü abzasının birinci cümləsində, 2.2.53-cü yarımbənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2. həmin Qaydalara 5 nömrəli əlavə - "Təhlükəli yüklərin təhlükəsiz yüklərlə birgə daşınmasının mümkünlüyü cədvəli"nin "Təhlükəsiz yüklərin adı" sütununun səkkizinci hissəsində "Ərzaq və taxıl" sözləri "Qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 dekabr tarixli 220 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.3-cü bəndin səkkizinci abzasında "ərzaq məhsullarının və içkilərin" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin;

4.2. 5-ci hissənin "Təhlükəli yüklərin siyahısı" cədvəlində "Ərzaq" sözü müvafiq olaraq "Qida" sözü ilə, "ərzaq" sözü müvafiq olaraq "qida" sözü ilə əvəz edilsin;

4.3. "6.3.3. 3-cü sinif" bölməsinin "TAM-ın birgə daşınması" hissəsinin ikinci abzasında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

4.4. "6.3.6. 6-cı sinif" bölməsinin "Birgə daşınmalar" hissəsinin ikinci abzasında və "Yüklərin müvəqqəti saxlanılması" hissəsində "ərzaq, çörək-yem" sözləri "qida, yem" sözləri ilə əvəz edilsin;

4.5. 12.5-ci bəndin səkkizinci abzasında hər iki halda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

4.6. Qaydalara 1 nömrəli əlavə - "Hava nəqliyyatı ilə birgə daşınmasına yol verilən təhlükəli yüklər ("0" - yol verilmir, "+" yol verilir)"də "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

4.7. Qaydalara 12 nömrəli əlavə - "Təhlükəlilik nişanları"nda "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 67-ci hissəsində "ərzaq" sözü "qida" sözü ilə, 76-cı hissəsində "ərzağın" sözü "qidanın" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 10 **QƏRAR** Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 aprel tarixli 143 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin fiziki mühafizəsi və mühəndis təhlükəsizlik sistemləri ilə təchiz edilməsi üzrə Xüsusi Tikinti Normaları"nda, 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə, 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda, 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nda və 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-si il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 aprel tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin fiziki mühafizəsi və mühəndis təhlükəsizlik sistemləri ilə təchiz edilməsi üzrə Xüsusi Tikinti Normaları"nın 5.1.3-cü yarımbəndində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-ci bəndin cədvəl hissəsinin "3. Malların mənşə ölkəsinin, emal prosesində hasilat normalarının və keyfiyyətinin müəyyən edilməsi" bölməsi üzrə:

2.1.1. 3.9-cu, 3.15-ci, 3.17-3.20-ci sütunlarda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

2.1.2. 3.23-cü sütunda "bioloji fəal qida əlavələrinin" sözləri "bioloji aktiv qida məhsullarının" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nın 5.3.5-ci, yarımbəndində 5.3.22-ci yarımbəndinin üçüncü cümləsində və 5.4.10-cu yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 15-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"15. Qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktı, ixrac olunan qida və yem məhsullarına verilən sağlamlıq sertifikatı.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 dekabr tarixli 522 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın 24.6.1-ci yarımbəndində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 8 **QƏRAR** Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nda, 2021-ci il 27 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"ndə, 2021-ci il 30 mart tarixli 80 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ərzaq balansının tərtib olunması Qaydası"nda, 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"da və 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-si il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.16-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.16. idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara verilən idxal sağlamlıq aktı, ixrac olunan qida və yem məhsullarına verilən sağlamlıq sertifikatı;";

1.2. 2.22-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.22. qida zənciri obyektinin (subyektinin) qeydiyyata alınmasına və ya təsdiq olunmasına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalını həyata keçirən obyektlərin qeydiyyata alınmasına dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarış;".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.5-ci yarımbəndin altıncı abzasında "Qeyri-ərzaq malları" sözləri "Qeyri-qida məhsulları" sözləri ilə əvəz edilsin;

2.2. 2.1.6-cı yarımbəndin birinci abzasında "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin;

2.3. 2.1.6-cı yarımbəndin ikinci abzasında və hər üç halda beşinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

2.4. 2.1.6-cı yarımbəndin altıncı abzasında "ərzaq" sözü "qida" sözü ilə, "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Ərzaq balansının tərtib olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin 1-ci hissəsinə" sözləri "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 31.1-ci maddəsinə" sözləri ilə əvəz edilsin;

3.2. 1.2.1-1.2.3-cü yarımbəndlərdə "ərzaq və xammal kimi istifadə edilən yeyinti" sözləri "qida" sözü ilə əvəz edilsin;

3.3. 3.1.3-cü, 3.4.3-3.4.5-ci yarımbəndlərdə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisə-lərinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 5.1.3-cü yarımbəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı"nın cədvəlinin 16-cı hissəsinin "İxtisaslar" sütununda "Ərzaq" sözü "Qida" sözü ilə və "qeyri-ərzaq" sözü "qeyri-qida" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 9 **QƏRAR** Bakı şəhəri, 12 yanvar 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Respublika Olimpiya İdman Liseyində təhsil alan idmançı-şagirdlər üçün qida normaları"nda, 2003-cü il 15 fevral tarixli 23 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fəaliyyətin məhdudlaşdırılması tələb olunan ayrı-ayrı peşə növlərinin və yüksək təhlükə mənbəyi ilə bağlı işlərin Siyahısı"nda, 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də, 2003-cü il 6 dekabr tarixli 157 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nda və 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-si il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Respublika Olimpiya İdman Liseyind? təhsil alan idmançı-şagirdlər üçün qida normaları" cədvəlində "Ərzaq" sözü "Qida" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 23 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Fəaliyyətin məhdudlaşdırılması tələb olunan ayrı-ayrı peşə növlərinin və yüksək təhlükə mənbəyi ilə bağlı işlərin Siyahısı"nın 22-ci hissəsində "Yeyinti" sözü "Qida" sözü ilə, "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"nin 5.12-ci bəndinin beşinci abzasında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 6 dekabr tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı"nın 3.2-ci bəndində (hər iki halda) və 3.5-ci bəndində "ərzaq" sözü "qida" sözü ilə, 3.9-cu bəndində "ərzaq mallarının" sözləri "qida məhsullarının" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 42-ci hissəsinin birinci abzasında "ərzaq" sözü "qida" sözü ilə, ikinci abzasında "Yeməyin" sözü "Qida məhsullarının" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## MSK-da prezidentliyə namizədlərə ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatma keçirilib

Məzahir Pənahovun sədrliyi ilə yanvarın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda əvvəlcə fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparılması üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatmanın keçirilməsi, nəticələrin protokollaşdırılması və bölgü cədvəlinin dərc edilməsi məsələsinə baxılıb.

Diqqətə çatdırılıb ki, prezidentliyə namizədlərin qeydə alınması prosesi artıq başa çatıb və müxtəlif siyasi partiyalar tərəfindən irəli sürülmüş, habelə öz təşəbbüsü ilə seçkilərə qatılmış 7 iddiaçının namizədliyi qeydə alınıb. Seçki Məcəlləsinin tələbinə əsasən yanvarın 15-dən start götürən seçkiqabağı təşviqat mərhələsi səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Seçkilərdə azad və sərbəst şəkildə seçkiqabağı təşviqatın aparılması üçün hərtərəfli şərait və geniş imkanlar yaradılıb. Qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 139-u qapalı olmaqla, ümumilikdə 278 yer ayrılıb. Həmin yerlər bütün təşviqat subyektləri üçün ödənişsizdir, heç bir icazə tələb olunmadan, yalnız müvafiq dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla seçicilərlə görüşlər keçirilə bilər. Seçkiqabağı təşviqatın aparılması məqsədilə qanunvericiliklə qadağan olunmayan digər yerlərdən də Seçki Məcəlləsinin tələblərinə uyğun istifadə edilməsi mümkündür. Namizədlər tərəfindən müraciət olunduğu halda müvafiq dairə seçki komissiyalarının yerli qurumlarla əməkdaşlığı şəraitində, bərabərlik prinsipi gözlənilməklə və bütün seçkiqabağı təşviqat subyektlərinə eyni əsaslarla görüş üçün əlavə imkanların yaradılması da nəzərdə tutulub. Bu seçkilərdə ödənişsiz əsaslarla seçkiqabağı təşviqatın aparılması üçün dövri nəşrlərin sayı artırılıb və "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərindən əlavə, "Respublika" qəzetində də dərc üçün yer ayrılıb. Ödənişli əsaslarla seçkiqabağı təşviqata qoşulmaq məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada mediadan daxil olan 44 müraciətin hamısı təmin edilib və təqdim olunmuş bütün məlumatlar Komissiyanın rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilib. Qeyd etmək lazımdır ki, əvvəlki illərlə müqayisədə media bu seçkilərdə ödənişli əsaslarla seçkiqabağı təşviqat mərhələsinə qoşulmaqda xüsusilə fəallıq nümayiş etdirib.

Mərkəzi Seçki Komissiyasının üzvləri və iclas iştirakçıları məlumatlandırılarkən habelə bildirilib ki, İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq - həftəlik 6 saat ödənişsiz efir vaxtı ayrılıb. Hüququ olan subyektlər tərəfindən həmin vaxtın 3 saatı televiziyada, 3 saatı isə radioda dəyirmi masa formatına uyğun istifadə edilir. Qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyaların təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyası və İctimai Televiziya və Radio Yayımları Şirkəti arasında əldə olunmuş razılığa əsasən ayrılmış efir vaxtı günün ən baxımlı vaxtında - həftənin 3 günü hər dəfə 1 saat olmaqla saat 21:00-da televiziya izləyicilərinə, 3 gün isə hər dəfə 1 saat olmaqla saat 21:00-da radio dinləyicilərinə təqdim olunacaq. Bununla bərabər, televiziyada keçirilən debatların ilk dəfə İctimai Televiziya və Radio Yayımları Şirkətinin rəsmi sosial media platforması üzərindən də birbaşa yayımlanması nəzərdə tutulur ki, bu da daha geniş auditoriyanın izləməsinə və məlumatlandırılmasına mühüm töhfə verəcək.

Sonra Komissiyanın iclasında qarşıdan gələn seçkilərdə seçkiqabağı təşviqat aparılması üçün İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış ödənişsiz efir vaxtının bölgüsü məqsədilə qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların təmsilçilərinin, beynəlxalq müşahidəçilərin və media nümayəndələrinin də iştirakı ilə püşkatma keçirilib. Prezidentliyə namizədlərin, yaxud onların səlahiyyətli nümayəndələrinin dəyirmi masa formatında yerləşmə və sözverilmə ardıcıllığı müəyyən olunub. Mərkəzi Seçki Komissiyası püşkatmanın nəticələrinin rəsmiləşdirilərək, efir vaxtının bölgüsü cədvəlinin dərc edilməsini qərara alıb.

İclasda həmçinin Böyük Quruluş Partiyası, Milli Cəbhə Partiyası və Böyük Azərbaycan Partiyasının vəkil edilmiş şəxsləri qeydə alınıb və cari məsələlərə baxılıb.

***

Mərkəzi Seçki Komissiyası yanvarın 15-də prezidentliyə namizədlər arasında ödənişsiz efir vaxtının bölgüsü məqsədilə püşkatma keçirib.

AZƏRTAC xəbər verir ki, prezidentliyə namizədlərin İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz efir vaxtında çıxış etmə ardıcıllığı məlum olub.

Püşkatmanın nəticəsinə görə, namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc 1-ci, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa 2-ci, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev 3-cü, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev 4-cü, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev 5-ci, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev 6-cı və namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyev 7-ci çıxış edəcəklər.

### QƏRAR № 4/16

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ödənişsiz efir vaxtının bölgüsü və bölgü cədvəlinin dərc edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədlərin qeydə alınma mərhələsi başa çatmış və nəticədə 7 iddiaçının namizədliyi qeydə alınmışdır. Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 75.2-ci maddəsinə uyğun olaraq səsvermə gününə 23 gün qalmış, yəni 2024-cü il yanvarın 15-dən başlayan seçkiqabağı təşviqat mərhələsində qeydə alınmış namizədlər və buna hüququ olan subyektlər qanunvericiliklə müəyyən olunmuş qaydada ödənişli və ödənişsiz əsaslarla təşviqat apara bilərlər.

Seçki Məcəlləsinin 77.1-ci maddəsinin tələblərinə əsasən ictimai teleradio təşkilatları namizədlərə, namizədi qeydə alınmış siyasi partiyalara təşviqat aparmaqdan ötrü bərabər şərait yaradırlar.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat aparmaq üçün İctimai Televiziya və Radio Yayımları Şirkətinin (bundan sonra - İTV) ayırdığı ödənişsiz efir vaxtının prezidentliyə qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar arasında bərabər şərtlərlə və bərabər həcmdə bölgüsü məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2024-cü il 14 yanvar tarixli 3/14 saylı Qərarı ilə püşkatma komissiyası yaradılmış, püşkatmanın yeri və vaxtı müəyyən edilmiş, bu barədə məlumat rəsmi dərc olunmuş və maraqlı subyektlər məlumatlandırılmışdır.

İTV Seçki Məcəlləsinin 80.5-ci maddəsində nəzərdə tutulandan 2 dəfə artıq (həftədə 6 saat olmaqla) ödənişsiz efir vaxtı ayıraraq, həmin vaxtın 3 saatının televiziyada, 3 saatının isə radioda hüququ olan subyektlər tərəfindən "dəyirmi masa" formatına uyğun istifadə edilməsi üçün təqdim etmək öhdəliyini öz üzərinə götürmüşdür. Qeydə alınmış namizədlər və namizədi qeydə alınmış siyasi partiyaların təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyası və İTV arasında əldə edilmiş razılığa əsasən sözügedən efir vaxtı daha geniş auditoriyanın baxması mümkün olan zamanda - həftənin 3 günü hər dəfə 1 saat olmaqla saat 21.00-da televiziya izləyicilərinə, 3 gün isə hər dəfə 1 saat olmaqla saat 21.00-da radio dinləyicilərinə təqdim olunacaq.

Püşkatma komissiyası İTV tərəfindən ayrılmış efir vaxtının bölgüsünü püşkatma yolu ilə müəyyən etməli, püşkatmanın nəticələri protokolla rəsmiləşdirilməli, efir vaxtının bölgüsü barədə cədvəl dərc edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74-cü, 75-ci, 80.1-ci və 80.4 - 80.7-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində püşkatma komissiyası İTV tərəfindən ayrılmış və həftəlik ümumi həcmi 6 saat olan efir vaxtının (2024-cü il yanvarın 15-dən başlayaraq 3 saat televiziyada hər dəfə 1 saat, saat 21.00-da başlamaqla, 3 saat radioda hər dəfə 1 saat, saat 21.00-da başlamaqla) bölgüsünü püşkatma yolu ilə müəyyən etsin.

2. Püşkatmanın nəticələri protokolla rəsmiləşdirilsin və efir vaxtının bölgüsü barədə cədvəl dərc edilsin (əlavə olunur).

3. Ayrılmış efir vaxtının keyfiyyətlə və vaxtında istifadəçilərin sərəncamına verilməsinin təmin edilməsi öz səlahiyyətləri daxilində İTV rəhbərliyinə həvalə edilsin.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.01.2024*

***2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində prezidentliyə qeydə alınmış namizədlər üçün İctimai Televiziya və Radio Yayımları Şirkətinin ayırdığı ödənişsiz efir vaxtının bölgüsü***

**C Ə D V Ə L İ**

***15 yanvar 2024-cü il***

Televiziyada "Dəyirmi masa" formatında

| Həftənin günləri | Efirəçıxma tarixi | Efirəçıxma vaxtı |
|---|---|---|
| Bazar ertəsi, çərşənbə və cümə | 15.01.2024 | 21.00 |
| | 17.01.2024 | |
| | 19.01.2024 | |
| | 22.01.2024 | |
| | 24.01.2024 | |
| | 26.01.2024 | |
| | 29.01.2024 | |
| | 31.01.2024 | |
| | 02.02.2024 | |
| | 05.02.2024 | |

Radioda "Dəyirmi masa" formatında

| Həftənin günləri | Efirəçıxma tarixi | Efirəçıxma vaxtı |
|---|---|---|
| Çərşənbə axşamı, cümə axşamı və şənbə | 16.01.2024 | 21.00 |
| | 18.01.2024 | |
| | 20.01.2024 | |
| | 23.01.2024 | |
| | 25.01.2024 | |
| | 27.01.2024 | |
| | 30.01.2024 | |
| | 01.02.2024 | |
| | 03.02.2024 | |

Ayrılmış efir vaxtı istifadəçilərinin masa ətrafında yerləşdirilməsi və aparıcı tərəfindən "Dəyirmi masa"nın aparılma ardıcıllığı

| Namizədin soyadı, adı, atasının adı | Aparıcıdan | |
|---|---|---|
| | sağda | solda |
| 1. Oruc Zahid Məhərrəm oğlu | 1 | |
| 2. Mustafa Fazil Qəzənfər oğlu | | 2 |
| 3. Əliyev İlham Heydər oğlu | 3 | |
| 4. Musayev Elşad Nəbi oğlu | | 4 |
| 5. Həsənquliyev Qüdrət Müzəffər oğlu | 5 | |
| 6. Nurullayev Razi Qulaməli oğlu | | 6 |
| 7. Əliyev Fuad Ağasi oğlu | 7 | |

***Qeyd:***

1. İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ayrılmış efir vaxtı püşkatma ilə müəyyən edilmiş qaydada və müddətdə (2024-cü il yanvarın 15-dən fevralın 6-dək) "dəyirmi masa" formatında istifadəçilərin sərəncamına veriləcəkdir.
2. Həftədə 3 dəfə saat 21.00-da başlamaqla televiziyada, 3 dəfə isə saat 21.00-da başlamaqla radioda hər dəfə 1 saat davam edən "dəyirmi masa"da hər bir namizədə 8 dəqiqə 57 saniyə efir vaxtı ayrılacaqdır.
3. İstifadəçi ona ayrılmış efir vaxtından qanunvericiliklə müəyyən edilmiş qaydada seçkiqabağı təşviqat məqsədləri üçün və "dəyirmi masa" formatında öz mülahizəsinə uyğun istifadə edə bilər.

### QƏRAR № 4/17

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Böyük Quruluş Partiyasının vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədi qeydə alınmış Böyük Quruluş Partiyası vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Böyük Quruluş Partiyasının vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:

- Elmir Əlqulu oğlu Quliyev;
- Yaşar Aydın oğlu İbrahimov;
- Şəmsəddin Binyət oğlu Xudaverdiyev;
- Əjdər Sultan oğlu Əhmədov;
- Oqtay Yusif oğlu Qasımov;
- Könül Fəhrad qızı Quliyeva;
- Süleyman Əmirxan oğlu Hümbətov;
- Sübhan Əliağa oğlu Əliyev;
- Sevinc Səyavuş qızı Ağajanova;
- Tural Nazim oğlu Mustafayev;
- Elçin Nazim oğlu Ağasiyev;
- Murad Nadir oğlu Əliyev;
- Faiq Bəşir oğlu Məmmədli;
- Nazim Əli oğlu Qədirov;
- Asif Sudeyf oğlu Əliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.01.2024*

### QƏRAR № 4/18

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Milli Cəbhə Partiyasının vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədi qeydə alınmış Milli Cəbhə Partiyası vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Milli Cəbhə Partiyasının vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:

- Elçin Vahid oğlu Həsənov;
- Murad Valeh oğlu Alışov;
- Qənbər Qaraş oğlu Əhmədov;
- Kamil Möhbalı oğlu Babayev;
- Məhəmməd Vidadi oğlu Əsədullazadə;
- Dayandur Mikayıl oğlu Tağıyev;
- Sərxan Mehti oğlu Tağıyev;
- Sərvaz Hüseyn oğlu Əskərov;
- Eldəniz Yusif oğlu Xudiyev;
- Zakir Turab oğlu Abbasov;
- İlqar Piri oğlu Dadaşov;
- Ülviyyə Cahandar qızı Şıxıyeva;
- Oktay Telman oğlu Alisgəndərov;
- Mirdamət Mirqiyas oğlu Sarıyev;
- Behbud Tərlan oğlu Abbasov;
- Esmira Zahir qızı Abbasova;
- Şirvani Hümmət oğlu Qasımov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.01.2024*

### QƏRAR № 4/19

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Böyük Azərbaycan Partiyasının vəkil edilmiş şəxslərinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikasının Prezidentliyinə namizədi qeydə alınmış Böyük Azərbaycan Partiyası vəkil edilmiş şəxslər təyin etmiş və onların qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 72-ci və 186-cı maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Böyük Azərbaycan Partiyasının vəkil edilmiş şəxsləri kimi qeydə alınsınlar:

- İlham Müseyib oğlu Bəkirli;
- Ramiz Şərif oğlu Mahmudov;
- Famil Məhəmməd oğlu Abdullayev;
- Zakir Hüseyn oğlu Ələsgərov;
- Elçin Dursun oğlu Nəbiyev;
- Valeh Bəylər oğlu Sadıqov;
- Anar Həsən oğlu Musayev;
- Babək Nizami oğlu Babayev;
- Bəhram Vəli oğlu Xıdırov;
- Müşfiq Gülməmməd oğlu Bəşirov;
- Cahil Nobətəli oğlu Dadiyev;
- Tahir Əli oğlu Əliyev;
- Elman Nəbi oğlu Musayev;
- Elşad Ağayusif oğlu Dadaşov;
- Əsəd Oruc oğlu Qurbanov;
- Ələkbər Ağabəy oğlu Həziyev;
- Faiq Ziyətdin oğlu Hüseynov;
- Şəhriyar Şakir oğlu İbrahimli;
- Akif Sabir oğlu Qocayev;
- Şakir İbrahimxəlil oğlu Məmmədov;
- Samir Fazil oğlu Abbasov;
- Tofiq Məmməd oğlu İbrahimov;
- Valeh Abbas oğlu İsmayılov;
- Ziya Əjdər oğlu Ələkbərov;
- İlqar Abdurahman oğlu İbrahimov;
- İsa Bayram oğlu Qasımlı;
- Nəsimi Saleh oğlu Hüseynov;
- Rauf Muxtar oğlu Qasımov;
- Şahin Şamil oğlu Mahmudov;
- Vüqar Məhəmmədəli oğlu Səlimov;
- Pərvin Çingiz oğlu Həsənov;
- Elbrus Kamil oğlu Novruzov;
- Aqşin Rafiq oğlu Əli;
- Mənsur Cəbrayıl oğlu Cəbrayılov;
- Səfa Sevdagər oğlu Əzimov;
- Şakir İbrahim oğlu Xəlilov;
- Hacıağa Hüsən oğlu İsmayılov;
- Elnur Cavad oğlu Qasımov;
- Tofiq Haqverdi oğlu İmanov;
- Eldar Elbən oğlu Ömərov;
- Orxan Kamandar oğlu Qurbanov;
- Azat Musa oğlu Madnayev;
- İsrafil Nəbi oğlu Musayev;
- Fazil İlyas oğlu Cəfərov;
- Balabəy Ağaməd oğlu Məlikov;
- Dünyamin Əhməd oğlu Əhmədli;
- Gültac Elşad qızı Musayeva;
- Esmira Musa qızı Abbasova;
- Fazil Musa oğlu Abbasov;
- Aydın Əlirza oğlu Mirzəyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.01.2024*

# 7 FEVRAL AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Bərabər təşviqat imkanları, bərabər təbliğat şəraiti

### "Azərbaycan" qəzetində prezidentliyə namizədlərin ödənişsiz təşviqat ardıcıllığını müəyyənləşdirən püşkatma keçirildi

Fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar seçki marafonunun əsas mərhələlərindən biri olan seçkiqabağı təşviqat dövrü artıq başlayıb. Qanunvericiliyin tələbinə əsasən, seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır.



Seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə müddətində qeydə alınmış prezidentliyə namizədlər arasında dövlət mətbuat nəşrləri tərəfindən ayrılmış ödənişsiz dərc yerinin bölgüsü məqsədilə püşkatma keçirilir. Rəsmi dövlət qəzeti olan "Azərbaycan" da püşkatma yolu ilə namizədlərin ödənişsiz əsaslarla təşviqat materiallarına yer ayırıb.

Yanvarın 15-də "Azərbaycan" qəzetinin redaksiyasında namizədlərin təşviqat materiallarının səhifələrdə yerləşdirilməsi ardıcıllığını müəyyənləşdirmək üçün püşkatma keçirilib. Qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edən "Azərbaycan" qəzetinin baş redaktorunun müavini, redaksiyada "Prezident seçkilərinə hazırlıq" qrupunun rəhbəri İxtiyar Hüseynli bildirib ki, rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzeti prezident seçkilərinin təbliğat və təşviqat kampaniyasında fəaliyyətini Azərbaycan Respublikasının Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında" Təlimatına əsasən müəyyənləşdirib. Qəzet prezidentliyə qeydə alınmış namizədlərin ödənişsiz əsaslarla təşviqat materiallarının dərci üçün həftə ərzində 14 min kv.sm (ümumilikdə 42 min kv.sm), yəni 7 (ümumilikdə 21) səhifə yer ayırıb.















İxtiyar Hüseynli əlavə edib ki, üç təşviqat həftəsi çərçivəsində 7 namizədin təşviqat materialları qəzetin bazar günü nömrələrində nəşr olunacaq: "Qəzetdə dərc ediləcək təşviqat materialları hər namizəd üçün A-2 formatlı qəzetdə bir səhifə, yəni 2000 kv.sm nəzərdə tutulur. Bu, qanunvericiliyə əsasən ayırmalı olduğumuz həcmdən əhəmiyyətli dərəcədə, 45 faiz daha artıqdır. Yəni həftəlik qəzet səhifələrinin ümumi həcminin 10 faizindən daha artıq yer təşviqat materialları üçün ayrılmışdır. Bu qərarımız prezidentliyə namizədlərin seçki qərargahları tərəfindən onlara dəstək kimi qarşılandı və yüksək qiymətləndirildi. Digər təklifimiz də seçki qərargahları tərəfindən ən ədalətli və obyektiv təşviqat modeli kimi dəyərləndirilib. Belə ki, biz prezident seçkilərinin təbliğat-təşviqat mərhələsində fərqli bir mexanizm təklif edirik. Hər həftə ardıcıllıq elə müəyyənləşdirilir ki, bütün namizədlər üçün bərabər təşviqat imkanları, bərabər təbliğat şəraiti yaranır. Beləliklə, reklam materiallarının dərci ardıcıllığında ədalətlilik, bərabərhüquqluluq təmin olunacaq və namizədlərin təşviqat materialları həftələr ərzində səhifələr və mövqelər üzrə dəyişiləcək".

"Azərbaycan" qəzeti seçki prosesinin dinamikliyini nəzərə alaraq, prezidentliyə namizədlər üçün digər ödənişsiz təşviqat imkanı yaradır. Belə ki, prezidentliyə namizədlərin görüşləri, çıxışları və digər təbliğat fəaliyyətləri də bərabərlik qorunmaqla, qəzetdə ödənişsiz əsaslarla dərc ediləcək.

Sonra namizədlərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə qəzetdə dərc ediləcək ödənişsiz təşviqat materiallarının ardıcıllığını müəyyənləşdirən püşkatma keçirilib. Püşkatmanın nəticəsinə əsasən dərc ardıcıllığı belə müəyyənləşdirilib:

1. **Elşad Musayev**
2. **Fuad Əliyev**
3. **Fazil Mustafa**
4. **Zahid Oruc**
5. **İlham Əliyev**
6. **Qüdrət Həsənquliyev**
7. **Razi Nurullayev**

Püşkatmadan sonra səlahiyyətli nümayəndələri maraqlandıran bütün suallara aydınlıq gətirilib və nümayəndələr öz fikirlərini bölüşüblər.

Prezidentliyə namizəd İlham Əliyevin səlahiyyətli nümayəndəsi, YAP-ın Mərkəzi Aparat rəhbərinin müavini **Əhliman Tağıyev** dedi: "Püşkatma çox obyektiv şəkildə keçirildi. "Azərbaycan" qəzetinin baş redaktorunun müavini Seçki Məcəlləsinin tələblərinə uyğun keçirilən püşkatma ilə bağlı ətraflı izahat verdi. Prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri bütün prosesi izlədilər və prosedur qaydalarının ədalətli olduğunu açıq-aydın gördülər. Püşkatmanın nəticəsi bütün tərəflərin razılığı ilə qarşılandı. Hesab edirəm ki, tam şəffaf şəkildə püşkatma keçirildi və namizədlərin təşviqatı materialları müəyyən olunan sıralama ilə "Azərbaycan" qəzetində bərabər imkanlar əsasında dərc ediləcək. Bu da namizədlər üçün yaradılan münbit şəraitdir və prezidentliyə namizədlərin seçicilərə öz platformasını geniş təqdim etmələri üçün çox önəmlidir. Püşkatmanın nəticəsindən razıyıq və hər bir namizədə uğurlar arzulayırıq".

Prezidentliyə namizəd Zahid Orucun səlahiyyətli nümayəndəsi **İlqar Kərimov:** "Burada püşkatma mərasimində iştirakım ilk dəfə deyil. Hər zaman olduğu kimi, bu dəfə də püşkatma şəffaf keçirildi. Fevralın 7-nə təyin olunmuş prezident seçkilərində kimin qalib gələcəyindən asılı olmayaraq, Uca Tanrıdan istəyimiz odur ki, xalqımıza ən xeyirlisini nəsib etsin. Zəfər seçkisinin demokratik keçiriləcəyinə inanırıq".

Prezidentliyə namizəd Qüdrət Həsənquliyevin səlahiyyətli nümayəndəsi **Yaşar Kələntərli:** "Püşkatma həmişəki kimi demokratik və şəffaf şəkildə həyata keçirildi. Bütün qaydalara riayət edildi, rəsmi dövlət qəzetində təşviqat ardıcıllığı müəyyənləşdirildi. Hesab edirəm ki, bu seçkilərdə hər bir namizəd üçün bərabər imkanlar yaradılıb. Ümid edirik, hər şey Azərbaycanın dövlət və dövlətçiliyi üçün xeyirli, uğurlu olar. Azərbaycanda prezident seçkiləri ilk dəfə olaraq qalib ölkədə və bütün ərazilərimizdə keçiriləcək. Qalibin kimliyindən asılı olmayaraq, qazanan Azərbaycan olacaq".

Prezidentliyə namizəd Fazil Mustafanın səlahiyyətli nümayəndəsi **Leyla Musayeva:** "Azərbaycan" qəzeti redaksiyasında keçirilən püşkatma mərasimindən razı qaldım. Təşkilatçılıq yüksək səviyyədə idi. Hər bir namizəd üçün bərabər şərait yaradılıb. Püşkatma demokratik və şəffaf keçirildi. Təlimatlarla tanış olduq, lazım olan hər şey izah olundu. Təqdirəlayiq haldır ki, namizədlərin püşkatmada götürdüyü yerlərdən asılı olmayaraq, səhifədə təşviqat materialları tam ədalətli şəkildə yerləşdiriləcək. "Azərbaycan" qəzeti tərəfindən müəyyən edilən bu təşviqat ardıcıllığı mexanizmini çox müsbət dəyərləndirirəm. Ümid edirik ki, layiq olan namizəd qalib gələr".

Prezidentliyə namizəd Razi Nurullayevin səlahiyyətli nümayəndəsi **Ehtiram Mehtiyev:** "Açıq və demokratik şəraitdə keçirilmiş püşkatma mərasimi üçün təşəkkür edirik. Prezidentliyə namizəd 7 nəfərin səlahiyyətli nümayəndələri püşkatmada iştirak etdilər. Gedişatdan razıyıq. Ümid edirik ki, seçkinin sonuna qədər bütün proseslər belə demokratik şəraitdə davam edəcək. Bütün namizədlərə uğurlar arzulayırıq. Dövlətimiz və vətənimiz üçün xeyirli olsun".

Prezidentliyə namizəd Elşad Musayevin seçki qərargahının nümayəndəsi **Fikrət Cəfərov:** "Bugünkü ədalət prinsipinə əsaslanan püşkatma mərasimindən olduqca razı qaldıq. Yeni sıralama sisteminin düzgün qərar olduğunu düşünürük. Hər bir nümayəndə özü püşkatmada təbliğat günlərini müəyyənləşdirdi. Seçki müddətində materialların və press-relizlərin ictimaiyyətə çatdırılması üçün redaksiya tərəfindən göstəriləcək dəstək üçün də təşəkkür edirik.".

Prezidentliyə namizəd Fuad Əliyevin seçki qərargahının nümayəndəsi **Xəzər Teyyublu:** "Püşkatma mərasimi şəffaf və demokratik keçirildi. Hər namizədə həftədə bir dəfə olmaqla öz platformasını təbliğ etməyi üçün şərait yaradıldı. Bu çox təqdirəlayiq addımdır. Artıq təbliğat-təşviqat kampaniyamızın rəsmi qəzetdə necə aparılması mexanizmi və bizə ayrılan yer bəllidir. Biz də öz təbliğat və təşviqatımızı "Azərbaycan" qəzetində həyata keçirəcəyimizdən məmnunluq duyuruq".

***Rəşad BAXŞƏLİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Bu seçkilər bizə yeni siyasi güc verəcək

### Bütöv Azərbaycanda səsvermənin keçirilməsi böyük xoşbəxtlikdir

"Prezident İlham Əliyev fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən amilləri yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində geniş şərh edib. Dövlət başçısının qeyd etdiyi kimi, burada əsas səbəb bütün ərazilərimizdə suverenliyimizin tam bərpa olunmasıdır. Seçkilər müəyyən bir siyasi dövrə yekun vurur. İnanırıq ki, budəfəki prezident seçkiləri də uğurla başa çatacaq.



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat prezident seçkilərinin keçirilməsini zəruri edən səbəblər barədə danışıb. O bildirib ki, Vətən müharibəsində, eləcə də sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində əldə etdiyimiz zəfərlər bütün ərazilərimizdə suverenliyimizi tam təmin etdi. Bu dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçiriləcək. Torpaqlarımızın 20 faizi 30 il erməni işğalı altında qaldığına görə konstitusiyamızın müvafiq tələbi pozulmuşdu".

Deputatın dediyinə görə, uğurlu siyasi gedişlər nəticəsində əldə etdiyimiz qələbələr bu gün bizə Qarabağ və Şərqi Zəngəzurda yeni yaşayış məntəqələri tikməyə, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasına imkan verir. Bu o deməkdir ki, Azərbaycan dövləti tamam yeni reallıq formalaşdırıb. Bu yeni reallıq yeni dövrün başlanğıcıdır. Təbii ki, yeni mərhələyə keçid edərkən prezident seçkilərinin keçirilməsi də zəruridir. Çünki yeni seçkilərin özü də növbəti mərhələnin başlanğıcı olmalıdır.

Azər Badamov qeyd edib ki, Mərkəzi Seçki Komissiyası işğaldan azad olunmuş ərazilərdə artıq yeni seçki məntəqələri yaradıb. Deputatın sözlərinə görə, tariximizdə ilk dəfə Azərbaycan vətəndaşlarının ölkəmizin bütün ərazilərində seçkilərə qatılaraq səs verməsi böyük xoşbəxtlikdir. Təbii ki, belə şəraitdə keçiriləcək ilk səsvermə məhz prezident seçkiləri ilə bağlı olmalıdır. Lakin əgər biz seçki ardıcıllığı ilə prezident seçkilərini keçirmək üçün 2025-ci ili gözləsəydik, işğaldan azad olunmuş ərazilərdə keçiriləcək ilk səsvermə bələdiyyə seçkiləri olacaqdı.

"Hesab edirəm, növbədənkənar prezident seçkiləri "dəmir yumruğ"umuzun möhkəmliyinin növbəti nümayişi olacaq", - deyə deputat söyləyib.

7 fevralda keçiriləcək növbədənkənar prezident seçkilərində qalib gələcək namizəd yeni milli ideologiya ilə yeni dövrə başlayacaq. Bu ideologiya Azərbaycanın daha çox inkişafına, müdafiə gücünün atırılmasına, xalqımızın milli birliyinin daha da möhləmlənməsinə və xarici düşmənlərimizə qarşı daha mətinləşməsinə səbəb olacaq".

Deputat yekunda vurğulayıb ki, yeni mərhələdə xalqımızın dövlət başçısına yenidən etimad göstərəcəyinə şübhə yoxdur: "Bu inam və etimad ölkəmizin daha sürətlə irəliyə doğru addımlamasına səbəb olacaq. Həm də bu seçkilər ölkəmizə düşmən gözü ilə baxanlara qarşı daha inamlı mübarizə aparmağımız üçün bizə yeni siyasi güc verəcək".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Seçicilərin fəallığı seçki məntəqələrinin fəaliyyətindən də asılıdır

### 39 saylı Gəncə 2-ci Seçki Dairəsinin məntəqələrində seçkilərə hazırlıq cədvəl üzrə gedir




Fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri mühüm mərhələyə qədəm qoymuşdur - namizədlərin təbliğat kampaniyasına start verilmişdir.

Bunacan isə seçicilərin sərbəst, şəffaf şəraitdə səs vermələri, müşahidələrin aparılması üçün məntəqələrdə hər cür şərait yaradılmışdır. Gəncədəki 39 saylı Gəncə II Seçki Dairəsində olarkən bunun bir daha şahidi olduq. Dairənin sədri Zakir Hüseynovdan öyrəndik ki, dairə üzrə 36 məntəqə fəaliyyət göstərir. Bir məntəqə isə seçkilərə 5 gün qalmış yaradılacaq. Ümumilikdə dairəni əhatə edən məntəqələrdə 50 min 132 seçici qeydə alınmışdır. Bütün seçki məntəqələri təmir olunmuş, lazımi avadanlıqlarla, rabitə və digər texniki vasitələrlə, MSK tərəfindən göndərilən təşviqat plakatları, seçkilərin keçirilməsi üçün təlimatlarla təmin edilmişlər. Səsvermənin gedişini izləmək üçün 11 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır. Dairə üzrə 280 nəfər yerli, 2 nəfər xarici müşahidəçi qeydə alınmışdır. Seçkiqabağı təşviqatın aparılması, habelə təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün seçki məntəqələrinin ərazisində müvafiq yerlər ayrılmışdır.



Dairə sədri onu da qeyd etdi ki, əvvəlkilərdən fərqli olaraq bu seçkilərdə həm ilk dəfə səs verənlərin, həm də yaşı 70-i keçmiş seçicilərin sayında artım vardır. Belə ki, fevralın 7-də keçiriləcək prezident seçkilərində 690 nəfər ilk dəfə səs verəcək. Yaşlı seçicilər də az deyil. 3775 seçicinin yaşı 70-dən, 82 nəfərin isə 90-dan yuxarıdır.

Seçkiyə hazırlıqla bağlı görülən işlərlə yerində tanış olmaq üçün 24, 25 və 31 saylı seçki məntəqələrində olduq. Hər üç məntəqə yenicə inşası başa çatdırılmış 29 nömrəli tam orta məktəbdə yerləşir. Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı erməni vandallarının Gəncəyə raket hücumu bu məktəbi də qəzalı vəziyyətə salmışdı. Məktəb sökülərək yerində müasir təhsil ocağı inşa edilmişdir.

Məktəbdə yerləşən 24 saylı seçki məntəqəsinin sədri Günel Qəmbərova, 25 saylı seçki məntəqəsinin sədri Sevinc Nəbiyeva və 31 saylı seçki məntəqəsinin sədri Saida Tağızadə görülən hazırlıq işləri barədə ətraflı məlumat verdilər. Bildirdilər ki, 24 saylı məntəqədə 1151, 25 saylı məntəqədə 1388, 31 saylı məntəqədə 1480 seçici qeydə alınıb. Məntəqələrdə hər cür şərait yaradılmışdır, onlar zəruri avadanlıq və texniki vasitələrlə təchiz olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Arif Paşayev – 90

**Dəyərli alimləri, böyük şəxsiyyətləri, yüksək mənəviyyatlı ziyalıları ilə tanınmış Azərbaycan elminin keçən əsrin 60-cı illərindən süni, qərəzli qadağaları qırıb dünya səviyyəsinə yüksəlməsi, beynəlxalq aləmdə hörmət və ehtiramla qarşılanması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi hakimiyyətə gəlişi, onun milli kadrlara qayğısı, millətinə sonsuz sevgisi ilə bağlı idi.**



# Azərbaycan elminin şərəf rəmzi

Ümummilli Liderin "Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə öyünməyə haqqı var" deyimi tədqiqatçı-alimlərimizin ədəbiyyat və incəsənətin, fəlsəfə və dəqiq elmlərin inkişafında yeniliklər və elmi kəşflər etmələrinə stimul verdi. Onlar daha böyük əminliklə yazıb-yaradır, dünya elmini zənginləşdirirdilər. Bu dövrdə mötəbər jurnallarda "Yüksək tezlikdə yarımkeçirici müqavimətinin təmassız ölçülməsi", "Silisiumun xüsusi müqavimətinin təmassız üsulla yüksək tezlikdə ölçülməsi", "Yarımkeçiricilərin fiziki xüsusiyyətlərinin ifratyüksək tezlikli metodlarla tədqiqinə dair" nəzəri və təcrübi əhəmiyyətli məqalələr beynəlxalq aləmdə əks-səda doğurdu. Bu elmi yeniliklərin məntiqi nəticəsi olaraq uğurla müdafiə edilmiş "Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi" namizədlik dissertasiyasının müəllifi Arif Mir Cəlal oğlu Paşayev elmin səmasında yüksək intellektin və mənəviyyatın vəhdətini özündə birləşdirmiş nur mənbəyi kimi parladı.

Arif Paşayev 1934-cü il fevralın 15-də görkəmli ədəbiyyatşünas və yazıçı, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin ailəsində dünyaya gəlmişdir. Bu unudulmaz ziyalının adı hər bir azərbaycanlı, ədəbiyyatımızın nuruna sığınmış hər kəs üçün əzizdir, doğmadır. Mir Cəlal Paşayev böyük pedaqoq, ədəbiyyatımızın tədqiqatçısı, habelə ədəbiyyatımızın özü idi. Onun elmə, təhsilə verdiyi töhfə bir neçə ali məktəbin, universitetin töhfəsinə bərabər, şəxsiyyəti, incə qəlbi, dərin zəkası və yüksək əxlaqi-mədəni keyfiyyətləri milli mənəviyyatımızın təcəssümü sayılır.

Bu gün hər birimizin ehtiramla yad etdiyi, adından riqqətə gəldiyimiz ədəbiyyatşünaslar, şair və yazıçılar, bəstəkar və incəsənət ustadları Arif Paşayev böyüyüb ərsəyə gəldiyi ailənin qonaqları olaraq Mir Cəlal müəllimin nuruna toplaşırdılar: Səməd Vurğun, Həmid Araslı, Mirzə İbrahimov, Sabit Rəhman və digər nəhəng söz sahibləri Paşayevlərin səmimi ocağında öz ədəbi-bədii fikirlərini bölüşür, əsərlərindən parçalar söyləyirdilər.

Belə bir şəxsiyyətin ailəsində yüksəksəviyyəli tərbiyə almış Arif Paşayev kitaba, elmə, elm adamlarına sevgi ilə böyümüşdür. Gənclik illərindən alimlik yolunun nə qədər məşəqqətli, eyni zamanda şərəfli bir yol olduğunu anlayaraq öz zəhməti, yuxusuz gecələri, kitabxanalarda davamlı mütaliəsi, sonradan isə xüsusi ixtisaslaşdırılmış laboratoriyalarda, müxtəlif sənaye və təsərrüfat sahələrində dəyərli tədqiqatları həsabına istəyinə nail olacağını qarşısına məqsəd qoymuşdu.

Arif Paşayevin dəqiq elmlərin tərkib hissəsi olan fizikanı və riyaziyyatı ixtisas seçməsi texnika əsrində azərbaycanlı alimin bu sahələri də incəsənətə çevirməsinə səbəb oldu. Çünki akademik Arif Paşayevin hər bir kitabı, hər bir məqaləsi, rəhbərliyi altında müdafiə olunan hər bir dissertasiya sənət nümunəsi, incəsənətin, poeziyanın, nəsrin texniki dildə ifadəsidir. Bu məqamda "Müasir analizin atası" dahi Karl Veyerştrassın: "Müəyyən mənada şair olmayan riyaziyyatçı heç zaman həqiqi riyaziyyatçı olmayacaqdır" deyimi yada düşür.

Şərəfli həyat yolunun peşəkar hissəsini gənc Arif Paşayev 1951-1954-cü illərdə Moskva Elektrotexnika Rabitə İnstitutunun tələbəsi olaraq başlamış, 1954-1957-ci illərdə təhsilini Odessa Elektrotexnika Rabitə İnstitutunda uğurla davam etdirərək "Rabitə və radioayyım" ixtisasına yiyələnməklə yüksək ixtisaslı mütəxəssis kimi fəaliyyətə başlamışdır.

Gənc mütəxəssisin ilk əmək fəaliyyəti illərindən - Azərbaycan Dövlət Universitetində (indi BDU), Azərbaycan Milli Elmlər Akademiyasının Astrofizika bölməsində, AMEA-nın Fizika və Riyaziyyat İnstitutunda fitri istedad, xalqına məhəbbətdən irəli gələn bilik və bacarığını Vətənimizin inkişafı üçün tətbiq etmək istəyi həmişə güclü olmuşdur. Bu elmə bağlılıq, Vətən sevgisi onu Rusiyanın ən nüfuzlu elm ocaqlarından biri olan Moskva Dövlət Nadir Metallar İnstitutuna gətirdi və burada elmi mətinliyi, iradəsi ən qısa müddətdə tamamlanmış namizədlik dissertasiyasında öz əksini tapdı. Gənc alimin Azərbaycan SSR Elmlər Akademiyası fizika-riyaziyyat və texnika elmləri bölməsinin elmi katibi olması onun fitri istedadına, ona olan inamın və etimadın göstəricisi idi. Bunun ardınca Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları laboratoriyasına rəhbərlik, doktorluq dissertasiyasının uğurlu müdafiəsi gəldi. Görkəmli alim, akademik Arif Paşayev yüksək və ifratyüksək tezlikli diapazonlarda materialların zədəsiz tədqiqatlarının fiziki əsaslarını yaradaraq yeni, perspektivli bir sahəyə həyat bəxş etmişdir.

Xalqına və Vətəninə xidmət nümunəsi olan Əməkdar elm xadimi, akademik Arif Paşayev fizika və riyaziyyatın bütün sahələrində öz nüfuzlu sözünü söyləmişdir. Əsərləri dünya kitabxanalarının qızıl fondlarında saxlanılan alim, görkəmli ictimai xadim, əvəzolunmaz təhsil təşkilatçısı yüksək mənəviyyat təcəssümüdür. Onun kitabları və məqalələri xaricdə dəfələrlə çap olunmuş, habelə adı dünya fizika və riyaziyyat elminin salnaməsinə qızıl hərflərlə yazılmışdır. Akademik Arif Paşayev Beynəlxalq Mühəndislik, Beynəlxalq Elmlər, Beynəlxalq Nəqliyyat, Beynəlxalq Ekoenergetika və Beynəlxalq İnformatizasiya akademiyalarının və digər akademiyaların həqiqi üzvüdür. Həmçinin Rusiya Elmlər Akademiyasının fəxri üzvüdür və P.L.Kapitsa adına Qızıl medala layiq görülmüşdür. Görkəmli akademikimiz Vyana Beynəlxalq Universitetinin fəxri professoru, Ukrayna Milli Aviasiya Universitetinin, Gürcüstan Aviasiya Universitetinin, A.S.Popov adına Odessa Milli Rabitə Akademiyasının fəxri doktoru və bir çox nüfuzlu akademiyaların, universitetlərin fəxri doktoru və professoru adını daşıyır.

Əməkdar elm xadimi, akademik Arif Paşayev müstəqil dövlətimizin təkcə regionda deyil, dünya miqyasında nüfuzunun yüksəlməsi uğrunda bir alim-vətənpərvər kimi çalışır. Bu baxımdan onun alim və təşkilatçı kimi zəngin həyat yolunda yaratdığı ən gözəl əsərlərdən biri bütün ölkəmiz üçün strateji əhəmiyyətli, elmi bazada yüksək inkişaf edərək dünya birinciləri arasında inamla öz yerini tutmuş, qətiyyətlə irəliləyən Milli Aviasiya Akademiyasıdır. Müstəqilliyini yeni əldə etmiş, aviasiya kimi mühüm sahəyə, bu sahənin istər elmi, istərsə də praktik istiqamətdə inkişaf etməsinə, yüksəkixtisaslı mütəxəssislərə böyük ehtiyac duyulan Vətənimizdə akademik Arif Paşayev rektoru olduğu bu elm ocağında qarşıda duran hədəfləri görmüş, çətinliklərin və problemlərin olacağını duyaraq məqsədyönlü surətdə bütün vəzifələrin öhdəsindən özünəməxsus inam və alim şücaəti ilə gəlmişdir.

Milli Aviasiya Akademiyasının rektoru kimi onun yüksək təşkilatçılığı sayəsində akademiyanın fəaliyyəti dünya səviyyəsində tanınmış, elmi-metodiki işlər və yüksəkixtisaslı kadrların hazırlanması digər ali təhsil ocaqları üçün nümunəyə çevrilmişdir. Akademiyanın infrastrukturu ilə tanışlıq bu ali təhsil ocağının elm və texnikanın, nəzəriyyə və təcrübənin üzvi inteqrasiyanın etalonu olduğunu anlamağa imkan verir. Akademiya əsl "aviasiya məbədidir", 6 fakültəni, 23 kafedranı, Pilotların Hazırlığı Mərkəzini, Texniki Xidmət Məktəbini, Aviasiya Təhlükəsizliyi Mərkəzini və digər ümdə əhəmiyyətli bölmələri özündə birləşdirmiş akademiya Arif Paşayev şəxsiyyətinin, elmi-pedaqoji istedadının bəhrəsidir. Onun təşəbbüsü və təşkilatçılığı akademiyada "İqtisadiyyat və hüquq", "Aviamühəndislik", "Aviatexniki"... "Aviasiyya nəqliyyat istehsalatı", "İxtisasartırma" kafedraları açılmış, müasir standartlara uyğun korpuslar, yataqxana və idman meydançaları inşa edilmişdir.

Görkəmli akademikin böyük təşkilatçılıq fəaliyyəti eləcə də akademiyanın müasir avadanlıqlarla təmin olunmasında və Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya ali təhsil müəssisəsi" sertifikatına layiq görülməsində, həmçinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının ali təhsil müəssisələrinin siyahısına daxil edilməsində təcəssüm etmişdir. Böyük alimimizin yaradıcı fəaliyyətinin nəticəsidir ki, Milli Aviasiya Akademiyası dünya ali təhsil sisteminə nəinki uğurla inteqrasiya etmiş, həmçinin bir çox dövlətlərin analoji təhsil müəssisələri üçün etalon kimi qəbul olunmuşdur.

Əməkdar elm xadimi, akademik Arif Paşayev gözəl ailə başçısı, xoşbəxt ata və babadır. Həyat yoldaşı tanınmış şərqşünas və ədəbiyyatşünas, professor Aida xanım İmanquliyeva olmuşdur. Bu ailədə hər bir azərbaycanlının fəxr və qürur mənbəyi, milyonlarla insanın səmimi məhəbbətini qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dünyaya gəlmişdir.

Əməkdar elm xadimi, akademik Arif Paşayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur.

Görkəmli alim, ictimai xadim, akademik, Əməkdar elm xadimi Arif Mir Cəlal oğlu Paşayev anadan olmasının 90, elmi fəaliyyətinin 65 illiyi ərəfəsində də öz zəngin təcrübəsini gənc alimlərə və tələbələrə həvəslə öyrədir, ölkəmizin elmi və iqtisadi potensialının yüksəlməsi uğrunda yorulmadan çalışır.

*Vaqif ŞADLİNSKİ,*
*Əməkdar elm xadimi,*
*professor*

# Azərbaycan - yaxın gələcəyin "yaşıl" ölkəsi

**Son** illər qlobal əhəmiyyətli bir çox tədbirlərin təşkilini uğurla həyata keçirən Azərbaycan bu il də möhtəşəm bir beynəlxalq tədbirə evsahibliyi edəcək. Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bu il ölkəmizdə keçirilməsi ilə bağlı qərar qəbul olunub. Hazırda bu mühüm əhəmiyyətli tədbirə hazırlıq işləri görülməkdədir.

Bununla bağlı 15 dekabr 2023-cü il tarixində keçirilən müşavirədə Prezident İlham Əliyev COP29 beynəlxalq konfransının Azərbaycanda keçirilməsi qərarını ölkəmizin növbəti böyük uğura imza atması kimi dəyərləndirdi: "...Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı".

### Beynəlxalq aləmin Azərbaycana dəstəyi

Nəzərə alsaq ki, bu cür qlobal miqyaslı tədbirlərə hansı ölkənin evsahibliyi etməsi ilə bağlı qərarlar beynəlxalq birliyin hər bir üzvünün rəyi, rəsmi razılığı nəzərə alınmaqla qəbul edilir, o zaman COP29-un Azərbaycanda keçirilməsi qərarının yeni reallıqlar dövründə nə qədər böyük tarixi mahiyyət daşıdığını təsəvvür edə bilərik.

Beynəlxalq birliyin bu mühüm qərarının Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror tədbirlərindən, ərazi bütövlüyümüzün tam bərpasından cəmi iki ay yarım sonraya təsadüf etməsi bütün dünya ictimaiyyətinin vətənimizin haqq mübarizəsinin tarixi nəticəsinə, dövlət suverenliyimizin bərpasına yekdil dəstəyinin ifadəsidir. Bu, başqa ölkələrin daxili işlərinə qarışmaq siyasətindən əl çəkmək istəməyən, riyakarcasına ikili standartları davam etdirən, Ermənistana revanşistləri yenidən diriltməyə çalışan bəzi Qərb ölkələrinə də tutarlı cavabdır.

COP29-un ölkəmizdə keçirilməsi qərarı xüsusilə Fransanın son zamanlar Azərbaycana qarşı səsləndirdiyi əsassız ittihamların mənasızlığını göstərir. Əslində, başqa cür ola da bilməz. Bu məsələdə beynəlxalq hüquq normaları, haqq-ədalət meyarları məhz Azərbaycanın tərəfindədir. Dövlətimiz öz suveren ərazisində separatçılara, torpaqlarımızı 30 il işğal altında saxlayanlara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin edib. Bütün humanitar normalara riayət etməklə öz suverenliyinin bərpasına nail olub. Amma bəzi Qərb ölkələri, xüsusən Fransa bununla barışmaq fikrində deyil. "Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının Azərbaycanda keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar", - deyə Azərbaycan Prezidenti sözügedən müşavirədə bildirib.

### COP29 da yüksək səviyyədə keçiriləcək

Ölkəmiz indiyə kimi bir çox belə tədbirləri uğurla təşkil edib, bu sahədə mükəmməl nümunələr, üstün meyarlar yaradıb və təbii ki, zəngin təcrübə toplayıb. Ötən il Beynəlxalq Astronavtika Konqresi Bakıda böyük müvəffəqiyyətlə keçirildi. Bu mötəbər beynəlxalq tədbirin 50 ildən sonra ikinci dəfə Azərbaycan paytaxtında təşkil olunması ona xüsusilə böyük tarixi dəyər qatırdı. 50 il əvvəl sovet, bu gün isə müstəqil Azərbaycanın paytaxtı olan Bakı bu mötəbər tədbirə uğurla evsahibliyi etdi və konqres bütün dünyada böyük maraq doğurdu.

COP29-a gəlincə isə bu, indiyə qədər keçirilmiş tədbirlərin ən genişmiqyaslısı olacaq. Bununla bağlı müşavirədəki çıxışı zamanı dövlətimizin başçısı tədbirin əhatə dairəsi barədə əyani təsəvvür yaratmaq üçün maraqlı bir müqayisə aparıb: "Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

Prezident İlham Əliyev onu da vurğulayıb ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından geri qalmır. "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neftqaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

COP29-un məhz Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzv kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verən ölkəmizin bununla bağlı strateji hədəflərinə uyğundur. Məlumdur ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri məhz "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" olmaqdır. Müvafiq prioritetə uyğun şəkildə, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili kimi götürülmüş 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarını 35, 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşısına məqsəd qoyub. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də




Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesi də ətraf mühitin qorunması prioriteti nəzərə alınmaqla həyata keçirilir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Dövlətimiz "yaşıl enerji" növlərinin yaradılmasına və onların dünya bazarlarına nəqlinə enerji siyasətində xüsusi əhəmiyyət verir, o cümlədən elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılması hədəflənir. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan edilməsi də ölkəmizin bu sahədə qarşıya qoyduğu hədəflərə sadiqliyini göstərir.

### Dövlətimiz bütün hədəflərinə çatacaq

29 sentyabr 2023-cü ildə Zəngilanda keçirilmiş 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışı zamanı Prezident İlham Əliyev Böyük Qayıdış Proqramının icrası zamanı da müasir texnologiyalardan, modern şəhərsalma nümunələrindən geniş istifadə edildiyini, "ağıllı şəhər" və "ağıllı kənd"lərin inşa olunduğunu diqqətə çatdırdı. Zəngilan şəhərinin baş planının artıq təsdiq edildiyini, infrastruktura böyük vəsait ayrıldığını, bir neçə yaşayış layihəsinin icra edildiyini bildirdi: "Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur. O, insanlar üçün asan çıxışı təmin edəcəkdir. Gələcəkdə isə, əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaqdır. Çünki bu bölgə Azərbaycanın ən gözəl guşələrindəndir. Meşələri, çayları, gölləri və misilsiz ekosistemi olan Zəngilan bizim ən böyük sərvətimizdən biridir. Əminəm ki, vaxt keçdikcə bu, turistlər tərəfindən ən çox sevilən bölgə olacaq".

Azərbaycan Prezidenti onu da vurğuladı ki, Zəngilan Beynəlxalq Hava Limanı azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanıdır. Üçüncüsü isə Laçında inşa edilir və iki il ərzində o hava limanı da istifadəyə veriləcək.

Forumda Prezident İlham Əliyev hazırda Zəngilanda təkcə pilot yaşayış layihəsinin deyil, həmçinin pilot kənd təsərrüfatı layihəsinin də həyata keçirildiyinə nəzər yetirdi. Ümid etdiyini bildirdi ki, Zəngilan gələcəkdə Azərbaycanın qida təhlükəsizliyinə sanballı töhfə verəcək.

Enerji potensialı, nəqliyyat, yaşayış layihələri - bunların hamısı Azərbaycan dövlətinin yaxın illər üzrə müəyyən etdiyi gündəliyin tərkib hissəsidir. Dövlətimizin başçısının qətiyyəti, effektiv siyasəti, xalqın bu siyasətə fəal dəstəyi sayəsində dövlətimiz qarşıya qoyduğu bütün vəzifələrə və hədəflərə nail olacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# "Əsrin müqaviləsi"nin daha bir müjdəsi

## AÇG-nin yenilənmiş sazişi üzrə ilk hasilat gözlənilir

**Bu il "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində ilk hasilatın əldə olunması nəzərdə tutulub. Belə ki, ötən ilin dekabrında layihə üzrə eyniadlı platformadan ilk hasilat quyusunun qazılmasına başlanıb.**



ACE layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişə əsasən həyata keçirilir. Saziş 2017-ci il sentyabrın 14-də imzalanb, Milli Məclis tərəfindən həmin il oktyabrın 31-də ratifikasiya olunub və 2019-cu ildə yeni layihə üzrə tikinti işlərinə start verilib. Bununla da AÇG-nin işlənilməsində yeni dövr başlanıb.

Yeni sazişlə nəhəng AÇG blokunun işlənilməsi 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Saziş ölkəmiz üçün daha da əlverişli şərtlərlə imzalandı, baxmayaraq ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" də Azərbaycanın maraqlarını tam təmin edirdi. Sazişin "Yeni əsrin müqaviləsi" adlandırılması da təsadüfi deyil. Çünki ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontrakt böyük əhəmiyyət daşıyır.

Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmadı. O cümlədən bp şirkəti layihənin operatoru olaraq qaldı.

Bütün bunlar bir daha təsdiq etdi ki, Azərbaycanın təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Son illər Azərbaycan dövləti möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Təbiətin xalqımıza bəxş etdiyi təbii sərvətlərdən böyük səriştə və uzaqgörənliklə istifadə olunur və onların istismarından əldə edilən gəlirlər ölkənin inkişafına, xalqın rifahına yönəldilir.

ACE bu işlərin uğurlu davamıdır. bp şirkətinin məlumatına görə, bir neçə ay əvvəl Bayıl tikinti-quraşdırma sahəsindən Xəzərdəki daimi yerinə yola salınmış platformanın üst modullarının dənizdə bütün quraşdırma işləri və istismar sınaqları təhlükəsiz şəkildə tamamlanıb. Platformadan qazılmağa başlayan quyunun ümumi dərinliyinin 3188 metrədək olacağı gözlənilir. Bu dərinliyə çatmaq üçün qazma işlərinin təxminən üç ay çəkəcəyi nəzərdə tutulur.

Hasilata başlayacaq "Azəri Mərkəzi Şərqi" platforması dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yerləşir, elə adını da yaxın qonşularından alıb. ACE 48 şaxtalı hasilat, qazma və yaşayış platformasıdır.

ACE layihəsinə həmçinin yeni yataqdaxili sualtı boru kəmərləri də daxildir. Xətlər qurğudan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün AÇG-nin mövcud sualtı ixrac kəmərlərinə qoşulacaq. Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressiya və suvurma platformasından ACE qurğularına nəql etmək məqsədilə ACE və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

ACE-nin qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır. İşlərin pik dövründə Azərbaycanda ACE layihəsinin tikintisinə 8500 nəfərdən çox fəhlə, texnik, mütəxəssis cəlb edilmişdi.

Yeni platformanın dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilmiş və üç il çəkən inşaat işləri 2022-ci ilin sonunda təhlükəsiz şəkildə tamamlanmışdı. Həmin il dekabrın 13-də Prezident İlham Əliyev BDÖZ sahəsinə baş çəkərək dayaq blokunun dənizə yola salınması prosesinə start vermişdi. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, ikincisi neft, sonuncusu qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildi.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə qeyd edildiyi kimi, Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılmışdı. Üst modullara neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Bu qurğu "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilmişdi. Quruda aparılması planlaşdırılan əsas istismar sınaqları uğurla yekunlaşmış və STB-1 daşıma barjı qurğunu dənizə - mənzil başına çatdırmışdır. 2023-cü il aprel ayının 4-də Prezident İlham Əliyev üst modulların inşa edildiyi sahəyə gələrək, tikintisi artıq sona çatmış qurğu dənizə, öz daimi yerinə yola salınmazdan əvvəl onun hazırlıq vəziyyəti ilə tanış olmuşdur.

Xatırladaq ki, ACE "Azəri-Çıraq-Günəşli"nin yeddinci hasilat platforması olacaq. Hazırda bu yataqlar blokunda "Çıraq", "Mərkəzi Azəri", "Şərqi Azəri", "Qərbi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformaları fəaliyyətdədir. Beləliklə, bu il onların sırasına "Mərkəzi Azəri Şərqi" də qoşulacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 833 min nəfər iqtisadiyyatın qeyri-dövlət sektorunda fəaliyyət göstərir

**2023-cü il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 732,6 min nəfər olmuşdur. Onlardan 899,8 min nəfəri iqtisadiyyatın dövlət, 832,8 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 19,2 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,0 faizi sənaye, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,4 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi peşə, elmi və texniki fəaliyyət, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 14,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Ötən ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,2 faiz artaraq 923,1 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Son bir ildə pensiya ödənişlərinə 5,7 milyard manatdan çox vəsait yönəldilib

**2023-cü ildə pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 16 faiz və ya 781 milyon manat çox olmaqla 5 milyard 726 milyon manat yönəldilib.**



Növbəti pensiya artımları olaraq ötən il minimum pensiya 280 manata çatdırılıb. 2022-ci ildə pensiyaçılara ödənilən maddi yardımların onların pensiyaları tərkibinə daxil edilərək, bundan sonra yaranan pensiya məbləğlərinin 14,7 faiz indeksləşdirilərək artırılması təmin olunub.

Həmin dövrdə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 436 manata, yaşa görə pensiyaların orta aylıq məbləği də 17 faiz artaraq 467 manata çatıb.

Son bir ildə 31,8 min, elektron təyinat mexanizminin tətbiqinə başlandığı 2019-cu ilin əvvəlindən isə 102 min vətəndaşa proaktiv qaydada pensiya təyin olunub.

## Faktorinq əməliyyatları üzrə ƏDV əvəzləşmə mexanizmi işə salınıb

**"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda kiçik və orta biznesin (KOB) maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi prioritet istiqamətlərdən biri kimi nəzərdə tutulub.**

Məlum olduğu kimi, sahibkarlıq subyektlərinin əməliyyatlarının faktorinq aləti vasitəsilə çevik şəkildə kreditləşdirilməsindən aktiv istifadə edilir. Bu alət biznesin maliyyə yükünün azaldılması və likvidlik səviyyəsinin artırılması istiqamətində bazara ciddi şəkildə təkan verir.

Təcrübədə istehsalçılar və topdansatış ticarət fəaliyyətini həyata keçirən biznes subyektləri tərəfindən satılan malların dəyəri, adətən, 2-3 ay ərzində və bəzi hallarda daha gec müddətdə geri ödənilir. Bu isə, istehsalçı və topdansatış ticarət subyektlərinin fəaliyyətində nağd pul çatışmazlığına səbəb olur. Belə vəziyyətdə banklar faktorinq alətindən yararlanmaqla biznes subyektlərinin maliyyə likvidliyini təmin edir və alıcılardan vəsaitlərin daxil olması ilə bağlı çətinliklər aradan qalxır.

Vergi Məcəlləsinin tələblərinə əsasən, ƏDV-nin əvəzləşdirilməsi üçün alınmış malların, işlərin, xidmətlərin əsas dəyəri satıcının bank hesabına, ƏDV məbləği isə ƏDV-nin depozit hesabına ödənilməlidir. Lakin faktorinq əməliyyatları üzrə əməliyyatların əsas dəyəri satıcıya deyil, müvafiq kredit təşkilatına ödənilir. Bu zaman Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq ƏDV-nin əvəzləşdirilməsində məhdudiyyətlər yaranır.

Faktorinq aləti mülki qanunvericilikdən irəli gələn və biznes subyektlərinə verilən hüquq olduğundan bunun vergi qanunvericiliyində də aydın şəkildə təsbit edilməsinə zərurət yaranıb. Son dəyişikliklərlə maliyyələşmə alətlərinin cəlbediciliyinin artırılması və biznesin fasiləsizliliyinin təmin edilməsi üçün faktorinq alətindən istifadə zamanı ödənilmiş ƏDV məbləğlərinin əvəzləşdirilməsinin mümkünlüyü qanunvericiliyə daxil edilib.

## Aqrar sektorun qarşısında duran vəzifələr fermerlərlə müzakirə edilmişdir

**Daşkəsəndə cari il qarşıda duran vəzifələrlə bağlı kənd təsərrüfatı məhsulları istehsalçıları ilə görüş keçirilmişdir.**

Görüşdə fermerlərlə kənd təsərrüfatı kooperasiyası üzrə pilot layihələrin dəstəklənməsi, kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsinin inkişafı, o cümlədən cins heyvandarlıq, kartofçuluq təsərrüfatlarının yaradılması, arıçılığın inkişafı istiqamətində işgüzar söhbətlər aparılmışdır.

Diqqətə çatdırılmışdır ki, dövlət başçısı tərəfindən imzalanan bir çox sərəncamın əsas məqsədi kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə təsərrüfatçılıq fəaliyyətini təşviq etmək, könüllülük əsasında kənd təsərrüfatı kooperativlərinin təşkilinə əlverişli şərait yaratmaq, kooperativlərin dayanıqlı fəaliyyətini təmin etmək, həmçinin aqrar sahədə kooperasiyanın formalaşmasına və inkişafına dəstək verməkdir. Bu istiqamətdə qəbul olunan qərarlar kənd yerlərində birgə təsərrüfatçılıq formalarının inkişafına təkan verməklə yanaşı, kooperativ üzvlərinin gəlirlərinin artmasına, həmin təsərrüfatlara investisiyaların cəlb edilməsinə şərait yaradır ki, bu da kəndlərdə yaşayan əhalinin sosial rifah halının yüksəlməsinə, məşğulluq səviyyəsinin artmasına səbəb olur.

Tədbirin sonunda kənd təsərrüfatı istehsalçılarının arzu və təklifləri dinlənilmiş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Kəndlərimizin "yaşıl"laşmağa imkanı daha çoxdur

**Məlumdur ki, ölkəmizin bərpaolunan enerji resurslarından istifadə ilə bağlı hədəfləri var. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qarşıya qoyulan məqsədlərdən biri ölkəni təmiz ətraf mühit və yaşıl inkişaf diyarına çevirməkdir.**



Sənəddə qeyd olunub ki, elmi-texniki uğurlara əsaslanaraq, iqtisadiyyatın bütün sahələrində bərpaolunan enerji mənbələrinin xüsusi çəkisini artırmaqla iqlim dəyişikliyinin təsirləri azaldılmalıdır.

Milli Prioritetlərdə ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün "yaşıl enerji"dən istifadə etmək ən optimal variant kimi irəli sürülüb. Çünki ətraf mühitin qorunması üçün xeyli tədbir görülməsinə baxmayaraq, hələ də enerji hasilatı zamanı ekologiyaya vurulan ziyandan qaçmaq olmur. Amma çıxış yolu var. Mütəxəssislərin dediyinə görə, işğaldan azad edilmiş ərazilərdə 2050-ci ilədək "netto sıfır emissiya" zonası yaradılması üçün böyük potensial mövcuddur. Bu ərazilərin enerji təminatını tamamilə bərpaolunan (su, külək, günəş) mənbələrdən əldə etmək mümkündür. Eyni zamanda mövcud və artırılacaq meşə massivləri emissiya udulmalarını təmin edərək "netto" hədəfə nail olunmasına kömək edəcək. Həmin ərazilərdə yaradılan "ağıllı şəhər", "ağıllı kənd"lər də emissiyaların qarşısının alınması tədbirlərini özündə ehtiva edir. Üstəlik, bu ərazilərdə "yaşıl kənd təsərrüfatı"nın tətbiqi və elektromobillərin istismarı nəticəsində qarşıya qoyulan hədəflərə çatmaq asanlaşacaq.

Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələrinin potensialının qiymətləndirilməsi üzrə işlərin icrasına başlanıldığı vaxtdan çox keçməsə də, artıq 6 rayonda - Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcərdə günəş-elektrik stansiyalarının (GES) tikintisi üçün ümumi potensialı 4000 MVt-dən yüksək qiymətləndirilən 8 perspektiv ərazi müəyyən edilib. Laçın və Kəlbəcər rayonlarının Ermənistanla sərhəddə yerləşən dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saatda 7-8 olduğu geniş ərazilər mövcuddur. Bu məqamda onu da qeyd edək ki, "yaşıl enerji"nin uğuru əhalinin elmi-texniki tərəqqini, texnologiyanı mənimsəmək istəyindən də asılıdır. Artıq neft, qaz, kömürdən istifadə etməkdən imtina olunma dövrüdür. Bunlara alternativ olan "yaşıl enerji" daha çox rahatlıq, qənaət, ən əsası isə ekoloji təhlükəsizlik deməkdir. Ona görə də günəş panelləri, külək və su-elektrik stansiyalarının gücündən istifadə etməyə alışmalıyıq.

Prezident İlham Əliyev yerli telekanallara verdiyi müsahibəsində bu barədə də söz açıb: "İndi hamımız yaxşı bilirik ki, bir çox aparıcı keçmiş neft şirkəti hətta öz adlarını da dəyişdirib enerji şirkətlərinə çevirirlər və getdikcə "yaşıl enerji"yə tələbat artacaq. Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər "yaşıl enerji" layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Orada müxtəlif məhdudlaşdırıcı addımlar da istisna deyil. Ona görə biz bu ümumi trendin içində olmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim misilsiz potensialımız var. Dəfələrlə bu barədə rəqəmlər deyilib və təkcə biz tərəfdən yox, Beynəlxalq Maliyyə Korporasiyası, - o da Dünya Bankının bir qoludur, - Xəzərdəki bizim potensialımızı 157 min meqavat həcmində təsdiqləyib. Ona görə indi enerji sahəsində bu istiqamət prioritetdir. Artıq keçən ilin oktyabr ayında birinci böyük Günəş-Elektrik Stansiyası istismara verildi və qrafik üzrə biz yaxın üç-dörd ilə bərpaedilən enerji növlərinin həcmini təqribən 3-4 min meqavat səviyyəsinə çatdıracağıq. Müqayisə üçün deyə bilərəm ki, bizim ümumi elektrik stansiyalarımızın potensialı hazırda təqribən 7-8 min meqavatdır və yeni stansiya da inşa edilir - 1200 meqavatlıq, yaxın zamanlarda istifadəyə veriləcək".

Dövlət başçısı bərpolunan enerji siyasətində xeyli həcmdə təbii qaza qənaət olunacağını da vurğulayıb: "Hazırda bizim elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. İndi bərpaolunan enerji növləri bizə, o cümlədən imkan verəcək ki, həmin o 5 milyard kubmetr qazı yox, bəlkə 1-2 milyard kubmetr qazı elektrik enerjisinin istehsalına xərcləyək, qalan qazı ixrac edək. Onsuz da Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpaolunan enerji hesabına edə bilərik".

Bir daha təkrar edirik: dövlətin "yaşıl siyasət"ini həyata keçirmək üçün ölkə vətəndaşları da "yaşıl enerji"yə keçid təşəbbüsünə qoşulmalıdırlar. Məsələn, qardaş Türkiyənin bəzi ucqar kəndlərində evlərin damında günəş panelləri quraşdırılıb. Bunu vətəndaşlar özlərinin istəyi ilə ediblər. Bu təcrübənin bizim ölkədə də tətbiqinin nəyi pisdir ki?! Əksinə, fərdi qaydada günəş panellərinin quraşdırılması həm ailənin enerji ilə bağlı xərclərinin azalmasına, həm də ətraf mühitin təmizliyinə səbəb olar. Bunu mütəxəssislər də təsdiq edirlər. Onların dediyinə görə, ucqarlarda günəş enerjisi bazasında çalışan qurğuların quraşdırılmasından sonra abunəçilər müstəqil şəkildə elektrik enerjisi istehsal edə bilərlər. Son illər Azərbaycanda günəş panellərinin satışı da təşkil olunub. Üstəlik, bölgələrdə alternativ enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi istiqamətində işlər aparılır. Sadəcə, günəş panelini quraşdırmaq bahalı proses olduğu üçün hələ ki insanlar özləri fərdi qaydada ondan istifadəyə meyil etmirlər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Qarın sınağından uğurla çıxdıq

# Polis yenə də dar günümüzün dayağı oldu





















**Bu qış qar, bərəkət, sevinc gətirsə də, hamımızı sınağa çəkdi. Bir andaca hər tərəfi bürüyən şaxtalı, çovğunlu qar çoxlarını qəfil yaxaladı, onları çətin vəziyyətlə üz-üzə qoydu. Ancaq qarın özü ilə bərabər gətirdiyi fəsadlarla yanaşı, sosial şəbəkələrdə edilən yüzlərlə paylaşım hər birimizin qəlbini isitdi...**

Bu paylaşımlar gecə-gündüz keşiyimizi çəkən, həmişə dar günümüzün etibarlı dayağı olan polislərimizin şaxta-qar demədən, çovğuna baxmadan köməksiz vəziyyətdə qalan insanlara yardım etməsi ilə bağlı idi. Onsuz da belə təhlükəli havalarda polis gücləndirilmiş iş rejiminə keçir, amma bu paylaşımlardan da bir daha gördük ki, onlar öz işlərini sadəcə yerinə yetirməli olduqları peşə vəzifəsi kimi yox, xalqımıza, bütövlükdə vətənimizə olan böyük sevgi hissləri ilə can-könüldən həyata keçirirlər.

Çətin hava şəraitində, yolların buz tutduğu təhlükəli vəziyyətdə yol polisi avtomobil sıxlığına qarşı, hərəkətin intensivliyinin təmin edilməsi istiqamətində gecə-gündüz fasiləsiz çalışaraq öz vəzifəsinin öhdəsindən layiqincə gəldi. Biz hətta yayılan görüntülərdə polislərimizin əlləri ilə duz səpərək yolları buzdan təmizləmək cəhdlərinə belə şahid olduq...

Qarlı yollarda qalanlara kömək əli uzatmaqdan, onları ünvanlarına çatdırmaqdan, yaşlılara, qucağı körpəli insanlara yardım etməkdən tutmuş, buzda ilişib qalan avtomobilləri öz əlləri ilə itələyib çıxarmaqlarına qədər polislərimizin fəaliyyəti ilə bağlı hər bir görüntü təqdirəlayiq hadisə oldu.

Onlar bu qarlı havada balaca dostlarımızı, sahibsiz heyvanları da yaddan çıxarmayaraq onları donvurmadan xilas etdilər, sığınacaqla, yeməklə təmin etdilər...

O da xüsusi vurğulanası məqamdır ki, bu qəlb isidən paylaşımların altına yazılan şərhlərin hamısında polislərimizin timsalında qəhrəman Azərbaycan oğulları ilə bağlı duyulan fəxr, qürur hissləri bir daha ifadə olundu.

Respublikanın bütün ərazilərində hava şəraiti ilə əlaqədar gücləndirilmiş rejimdə əlavə heyətlə xidmətini davam etdirən Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyata keçirdiyi qabaqlayıcı tədbirlərin səmərəli nəticəsidir ki, ölkə ərazisində kəskin hava şəraiti ilə əlaqədar ağır, yaxud ölümlə nəticələnən hadisə qeydə alınmayıb. DİN-in "102 Zəng Mərkəzi"nə vətəndaşlar tərəfindən hava şəraiti ilə bağlı minlərlə çağırış daxil olub, kömək istənilib və hər bir çağırış operativ qaydada yerlərdə xidmət edən əməkdaşlara ötürülməklə vətəndaşlara zəruri kömək göstərilib. Çağırışlar əsasən respublikamızın magistral yollarında, xüsusilə dağlıq ərazilərdə hərəkət edən şəxslərlə bağlı olub. Sağlamlıq vəziyyətində problem yaranan şəxslərin polisin xidməti avtomobilləri ilə yaşayış yerlərinə çatdırılması təmin edilib.

Ümumən yanvarın 13-ü axşamdan, yəni havanın pisləşməsindən başlayaraq görülən tədbirlər, əlavə heyətin xidmətə çıxarılması, fasiləsiz iş rejimi, respublikanın bütün bölgələrində, eləcə də işğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edildi.

Bəli, polislərimiz Naxçıvandan Qusara, Astaradan Zaqatalaya, Bakıdan Laçına, Ağdamdan Kəlbəcərə, Şuşadan Xocalıya, Xankəndiyə və digər şəhər, rayonlara qədər bütöv Azərbaycanda bu qarlı, şaxtalı havada fasiləsiz xidmət etdilər.

Həm də Qarabağı, Şərqi Zəngəzuru başdan-başa ağ dona bürüyən bu qarlı havada, uğrunda qanlarını tökdükləri, şəhidlər verdikləri bu torpağın murdar erməni ləkəsindən təmizlənmiş, paklanmış halında, vəzifələrini şərəflə yerinə yetirdilər.

Bütün çətin, təhlükəli hallarda, hər cür hava şəraitində Azərbaycan polisinin gecə-gündüz, ayıq-sayıq xalqımızın təhlükəsizliyinin etibarlı keşiyində olmasının sayəsində insanlarımız növbəti qış sınağından da heç bir problemlə üzləşmədən, sağ-salamat çıxdılar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakının küçə və prospektləri qardan təmizlənib





Gecə saatlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin kommunal strukturları və aidiyyəti qurumlar xüsusi, gücləndirilmiş iş rejimində çalışıblar.

Bu barədə Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib. Qeyd olunub ki, güclü qar yağmasa da, şəhərə kimi xidmətlərin əməkdaşları yüksək təşkilatçılıq və intizam nümunəsi göstərərək yağan qarın küçə, prospekt və piyada səkilərindən, avtobus dayanacaqları və metro stansiyalarının qarşısından təmizlənməsi işlərini aparıblar. Şaxtalı hava şəraitində qarın təmizlənməsi və xüsusi təyinatlı texnika vasitəsi ilə yollara duz səpilməsi həyata keçirilib. İşlər səhər saat 05-00-dan etibarən daha da intensivləşdirilib. Bütün gecə ərzində Bakı şəhər və rayon icra hakimiyyətlərinin rəhbər nümayəndələri ərazilərdə olub və aparılan işləri nəzarətdə saxlayıblar.

Təmizləmə işləri mərkəzlə yanaşı, Bakıətrafı qəsəbə və yaşayış massivlərində də aparılır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Paytaxt sakinlərinin qar sevinci




**Qar torpağa bərəkət, insanlara sevinc gətirir. Torpağın da üzü gülür, insanların da. Ölkəmizin paytaxtına yağan qar da sakinlərə sevinc və ruh yüksəkliyi gətirdi.**







Qar bu günlər paytaxtın gözəlliyinə ayrı bir gözəllik qatdı. Bakının küçələri, prospektləri, yolları, binaları, ağacları ağ dona büründü. Ürəklərə, gözlərə sevinc gətirən bu mənzərələrə baxmaqdan doymaq olmur. Qar hər tərəfə nur ələdi, işıq səpələdi.

Bəziləri yıxılmamaq üçün bir-birindən tutur, bəziləri buz bağlamış yolla hərəkət edə bilməyən sürücülərə kömək edir, sürüşən avtomobilləri itələyir. Bəziləri küçələri qardan təmizləyir, duz səpir, gediş-gəliş üçün yol açır. Bir sözlə, küçələrdə, evlərin, binaların həyətində böyük canlanma gözə dəyir.

Havanın soyuq olmasına baxmayaraq, şəhər sakinləri isti evlərindən çıxıb həyətə düşür, küçəyə çıxırlar. İnsanlar qarın sevincini yaşayırlar. Kimsə qartopu oynayır, kimsə "Şaxta baba" düzəldir, kimsə qarın üstündə sürüşür. Hərə sevincini bir cür ifadə edir. Üzlərdən, gözlərdən sevinc tökülür.

Qar yağanda ən çox uşaqlar sevinirlər. Sanki dünyanı onlara verirlər. Qar uşaqlar üçün həmişə əyləncə mənbəyi olaraq qalır. Balacaların arasında qardan müxtəlif fiqurlar düzəldən də, qartopu oynayan da, valideynin çağırışına məhəl qoymayıb qarın üstünə uzanan da, xizəklə sürüşənlər də var...

Qoy yanvar günlərində yağan bu qarın ayağı ruzili, barlı-bərəkətli olsun! Qar insanlara xoşbəxtlik və firavanlıq gətirsin. Ömrümüzə açılan səhərlər nurlu və işıqlı olsun!

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***




# Kraliça taxt-tacdan imtina etdi

## Danimarkanın yeni kralı II Marqretin oğlu X Frederik oldu

Danimarka kraliçası II Marqret taxt-tacdan imtina edib və oğlu X Frederik yeni kral olub.





II Marqret Danimarkaya 52 il rəhbərlik edib. O, taxtdan imtina etmək qərarını səhhəti ilə əlaqələndirib. Yanvarın 14-də günortadan sonra o, rəsmi olaraq taxt-tacı oğlu X Frederikə ötürüb.

83 yaşlı II Marqret 1972-ci il yanvarın 14-də atası IX Frederikin ölümündən sonra taxta sahib olub. O, təxminən 900 il ərzində taxtdan imtina edən ilk Danimarka monarxıdır. Ondan əvvəl, 1137-ci ildən 1146-cı ilə qədər hökmranlıq edən III Erik könüllü olaraq kral vəzifəsindən imtina edərək monastıra gedib.

II Marqret 2023-cü ilin fevralında belində cərrahiyyə əməliyyatı keçirən zaman taxt-tacı təhvil vermək haqqında düşünməyə başlayıb. Onun dediyinə görə, "əməliyyat mənə gələcək haqqında düşünmək üçün əsas verdi - mənim üçün məsuliyyəti gələcək nəslə ötürmək vaxtıdırmı?"

Yeni il müraciətində o, niyyətini təsdiqləyib.

Xüsusi mərasim Kopenhagendəki Kristiansborq qəsrində Dövlət Şurasının iclasında baş tutub. Sənədi imzaladıqdan sonra II Marqret deyib: "Tanrı kralı qorusun".

X Frederik kral kimi xalqa etdiyi ilk müraciətində bildirib: "İnsanları bir araya gətirərək sabahın kralı olacağıma ümid edirəm. Bu mənim bütün həyatım boyu yanaşdığım, qürurla, hörmətlə və sevinclə öz üzərimə götürdüyüm bir vəzifədir".

Tədbirdə iştirak edən Danimarkanın Baş naziri Mette Frederiksen X Frederiki "tanıdığımız, sevdiyimiz və güvəndiyimiz kral" adlandırıb.

Danimarka Müdafiə Nazirliyi bildirib ki, yeni kral ölkənin hərbi-dəniz donanmasının admiralı, habelə ordunun və hərbi-hava qüvvələrinin generalıdır.

X Frederikin 55 yaşı var. Ata tərəfdən Labord de Monpeza fransız qraf nəslinə mənsubdur. 2004-cü ildə avstraliyalı Meri Donaldsonla evlənib. Cütlüyün dörd övladı var.

Yeni kral Danimarka dilindən əlavə, fransız, ingilis və alman dillərində danışır.

"Berlingske" qəzetinin redaktoru Birgit Borup CNN telekanalına bildirib ki, sorğulara görə, X Frederik Danimarkada son dərəcə populyardır. O, idmanı çox sevir.

Xatırladaq ki, XX-XXI əsrlərdə Belçika, Bruney, Butan, İspaniya, Qətər, Lüksemburq, Niderland və Yaponiya monarxları müxtəlif səbəblərdən hakimiyyəti övladlarının xeyrinə tərk ediblər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Xarici ölkəyə aid saxta sənədlər hazırlayan transmilli cinayətkar dəstə üzvləri saxlanılmışlar

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə istiqamətində əməliyyat-istintaq tədbirlərini davam etdirir.

Son illər region dövlətləri arasında baş verən proseslərdən sui-istifadə edərək Azərbaycan Respublikasının və digər ölkələrin vətəndaşlarını Ukrayna vətəndaşları adı altında müxtəlif dövlətlərdə yaşaya, sığınacaq ala, vizasız sərbəst hərəkət edə bilmələri üçün qanunsuz yolla Ukrayna dövlətinə aid rəsmi sənədlərlə təmin edən transmilli mütəşəkkil cinayətkar dəstənin əməlləri ifşa olunmuşdur.

Aparılan araşdırmalar zamanı Ukraynanın Lvov şəhərində yaşamış Nuriyev İbadət Qəhrəman oğlu, Türkiyə Respublikasının İstanbul şəhərində yaşamış Bağırov Fərid Vaqif oğlu və digərlərinin qabaqcadan əlbir olan bir qrup şəxs halında 2023-cü ilin yanvar ayından etibarən ayrı-ayrı şəxslər üçün Ukraynaya məxsus pasport, şəxsiyyət və sürücülük vəsiqələrini, o cümlədən digər sənədləri qeyri-qanuni yolla hazırlayıb, hər birini 30.000 ABŞ dollarınadək müxtəlif məbləğlərdə pul vəsaiti müqabilində satmaları müəyyən edilmişdir.

DTX tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində həmin şəxslərin saxlanılaraq Azərbaycan Respublikasında istintaqa cəlb edilmələri təmin olunmuş, hüquq verən və vəzifədən azad edən vəsiqə və digər rəsmi sənədləri istifadə etmək məqsədilə qanunsuz hazırlama, bu cür saxta sənədləri satma və digər cinayət əməllərinə görə onlara ittiham elan edilmişdir.

Araşdırmalarla həmçinin müxtəlif dövlətlərdə saxta sənədlərlə hərəkət edən şəxslər müəyyənləşdirilmişdir.

Hazırda qeyd olunan və digər əlaqəli cinayətlərlə bağlı intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

*Azərbaycan Respublikası*
*Dövlət Təhlükəsizliyi Xidmətinin*
*Mətbuat xidməti*

# Paşinyan mediaya qarşı repressiyanı gücləndirib

## Hayastan kriminal şəxslərin neofaşizm yuvasına çevrilib

Hayastan insan haqlarının kobud şəkildə pozulduğu, rüşvətxorluq və korrupsiyanın tüğyan etdiyi, insan həyatının zərrə qədər də olsun, dəyərinin olmadığı bir ölkə kimi diqqəti cəlb etməkdədir. Bu ölkədə azad sözə meyilli olan və ictimai fəallığa can atan insanlar dərhal həbsə atılırlar, ağızları bağlanılır.



Hayastanda polisin fəaliyyəti, o cümlədən söz azadlığı, qadınların, fiziki imkanları məhdud şəxslərin hüquqları sahəsində bir sıra problemlər var. "Human Rayts Votç" təşkilatının ötən gün yaydığı hesabatda bildirilib ki, Hayastanda hüquq-mühafizə orqanlarının sui-istifadələrinə görə effektiv cavabdehliyin olmaması davam edən problemdir. Hesabata görə, ölkədə diffamasiya dekriminallaşdırılsa da, jurnalistlər və media siyasətçilərin və özəl şirkətlərin hədəfinə çevrilməkdə davam edir. Medianı hüquqi mübarizəyə sürükləyir, ağır maliyyə cərimələri ilə hədələyirlər.

Nəşr həmçinin Hayastan parlamentinin qəbul etdiyi qanunvericiliyə düzəlişi xatırladır ki, bu da dövlət qurumlarına sorğuları rədd etmək üçün əlavə imkan verir. Hesabatda əlilliyi olan şəxslərin hüquqlarından danışarkən vurğulanır ki, ölkədə psixo-sosial və əqli qüsurlu insanlar üçün hərtərəfli ictimai xidmət proqramları yoxdur.

Məişət zorakılığına gəlincə, hesabatda ötən ilin birinci yarısında qeydə alınan məişət zorakılığı şikayətlərinin 2022-ci ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artdığı qeyd edilir. Belə ki, bununla bağlı 144 nəfərə qarşı ittiham irəli sürülüb. 2022-ci ilin sentyabrından 2023-cü ilin sentyabrına qədər ən azı 12 qadın öldürülüb.

Hesabatda xatırladılır ki, Hayastanda məişət zorakılığı qurbanları üçün cəmi iki sığınacaq var ki, onlar birlikdə 24 qadın və onların uşaqlarına sığınacaq verə bilər. Təşkilat Qadın Hüquqlarını Müdafiə Mərkəzinə istinadən bildirir ki, sığınacaqlar daim izdihamla doludur və qadınların müdafiəsi səmərəsiz olaraq qalır.

Qərb dairələrinin 2018-ci ilin mayında Hayastanda baş vermiş dövlət çevrilişini "demokratik inqilab", hakimiyyəti ələ keçirmiş Nikol Paşinyanı "demokratik lider" kimi təqdim etmələrinə baxmayaraq, Hayastanda bu gün demokratiyanın işartıları belə qalmayıb, ölkə kriminal şəxslərin neofaşizm yuvasına çevrilib.

Əgər bu gün Hayastanda baş verənlər Azərbaycanda olsaydı, indi Qərb ölkələrində bu barədə bəyanat verməyən heç bir insan hüquq təşkilatı qalmayacaqdı. Hayastanda hamının gözü qarşısında hər etiraz aksiyalarında müxalifətin əzilməsi və sıradan çıxarılması isə qəribə bir susqunluqla qarşılanır. Bu, haqlı olaraq sual yaradır: niyə? Bu ikili standartlar nəyə görədir və bu ədalətsizlik, selektiv münasibət nə vaxtadək davam edəcək?!

Hayastan bir sıra qeyri-sivil və dözülməz problemləri ilə bərabər, siyasi məhbus probleminə və siyasi məhbuslarının sayına görə də "lider" ölkələrdəndir. Bu ölkədə ən adi insan haqları belə, tapdanılır, alternativ fikir söyləyən və mövqe sərgiləyən isə amansız təqiblərə və həbslərə məruz qalırlar. Bunu isə bir sıra müxalif erməni qəzetlərinin yazılarından da oxumaq, yaxud internetdən izləmək və xəbərdar olmaq mümkündür.

Hayastanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini (çıxışları, nəşrləri də daxil olmaqla) tənqid edən, təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi və yayımlanması qadağan edilib. Ölkədə hakimiyyəti, hətta bələdiyyələri belə tənqidə görə 1200 avro cərimə tətbiq edilir. Buna görə sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalığını və cinayətkarları tənqid edə bilmirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Rəsədxana: "Yaxın iki gündə geomaqnit qasırğası gözlənilmir"

Elm və Təhsil Nazirliyinin N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası kosmik hava durumu və proqnozunu açıqlayıb.




Kp indeksi 0-2 intervalında olduqda sakit, 3-5 intervalında olduqda mülayim, 6-7 mənfi intervalında olduqda orta qasırğa və 8 və 9 olduqda isə böyük qasırğaları ifadə edən geomaqnit fəallığın loqarifmik indeksidir. Proqnozlaşdırılan Geomaqnit Fəallıq İndeksləri (Kp, Dst və AE Proxies). Göstərilən proqnozlaşdırılmış göstəricilər yalnız süni neyron şəbəkələri vasitəsilə hazırlanmış modelləri istifadə edərək, Günəş küləyi məlumatlarına əsaslanır. Şaquli yaşıl xətlər ən son qiymətləri göstərir. Kp = 0 olduqca sakit bir dövr deməkdir, Kp = 9 isə ən güclü fəallıq deməkdir. AE indeksi proqnozlaşdırılan avroral fəallığı göstərir (1000-dən çox olduqda çox parlaq avroraya işarədir). Dst göstəricisi, Yer ətrafındakı halqavi cərəyan içərisindəki zərrəcikləri ölçür (-100-dən aşağı mənfi qiymətlər qasırğanın mövcudluğunu göstərir).

Rəsədxanadan AZƏRTAC-a bildirilib ki, Günəş ləkələrinin sayı artıb. 12 ləkə qrupunda 183 ləkə və kiçik Tac dəliyi müşahidə olunur.

Enerjisi 2 MeV-dən çox olan elektron seli normal və orta səviyyədə, 10 MeV-dən çox enerji yüklü proton seli isə fon səviyyəsində olub. Hazırda Günəş küləyinin sürəti normaldır (324 km/san), planetlərarası maqnit sahəsinin maksimal qiyməti 4 nT, radial istiqamətdə isə -1 nT təşkil edir. Kp indeksi 0.67-yə bərabərdir, kosmik hava sakitdir. Yanvarın 15-dən 21-dək C sinif alışmanın baş verməsi ehtimalı 95 faiz, M (R1-R2) sinif alışmanın baş verməsi ehtimalı 30 faiz, X (R3) sinif alışmanın baş verməsi ehtimalı isə 5 faiz təşkil edir.

Enerjisi 2 MeV-dən çox olan elektron selinin normal və orta səviyyədə, 10 MeV-dən çox enerji yüklü proton selinin isə fon səviyyəsində olacağı proqnozlaşdırılır.

Günəş küləyinin sürətinin müsbət qütblü Tac dəliklərindən çıxan Yüksək Sürətli Zərrəciklər Selinin təsiri ilə artacağı gözlənilir.

Yanvarın 16-17-də Tac dəliklərindən çıxan Yüksək Sürətli Zərrəciklər Selinin təsiri ilə geomaqnit sahəsinin fəallaşması ehtimalı var, geomaqnit qasırğası gözlənilmir.

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 760 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 50-60 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 5-10° isti olacağı, dağlarda gecə 10-15°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir.

Gecə və səhər dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı proqnozlaşdırılır.

# Mebel sexində dağıntılar altında 7 nəfərin meyiti aşkarlanıb, 24 nəfər xəsarət alıb

Yanvarın 15-də paytaxtın Binəqədi rayonu, A.Kunanbayev küçəsi yaxınlığında yerləşən mebel sexində partlayış baş verməsi barədə daxil olmuş məlumat əsasında dərhal prokurorluq əməkdaşları və Fövqəladə Hallar Nazirliyinin qüvvələri hadisə yerinə cəlb olunublar.

Görülmüş zəruri və təxirəsalınmaz tədbirlər sayəsində yanğın məhdudlaşdırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluq və Fövqəladə Hallar Nazirliyi birgə məlumat yayıb.

Hadisə yerinə xüsusi texniki vasitələr və canlı qüvvə cəlb edilməklə yanğının söndürülməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər davam etdirilir.

İlkin araşdırmalar zamanı dağıntılar altından 7 nəfərin meyiti aşkar olunub.

Hadisə nəticəsində 24 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Xəsarət alanlardan 6 nəfər ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb, digərlərinin müalicəsi xəstəxanada davam etdirilir. Onlara zəruri tibbi xidmətlər göstərilib, vəziyyətləri stabildir. Faktla bağlı Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma - ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq - ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq, baş prokurorun müvafiq qərarına əsasən prokurorluq və Fövqəladə Hallar Nazirliyinin peşəkar müstəntiqlərindən ibarət birgə istintaq qrupu yaradılıb, istintaqın aparılması Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinə həvalə olunub.

Partlayışın səbəbinin, dəymiş ziyanın həcminin, həmçinin iş üzrə əhəmiyyət kəsb edən digər halların müəyyən edilməsi üçün müvafiq ekspertizalar təyin edilib.

Hazırda zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İctimaiyyətin mütəmadi məlumatlandırılması təmin ediləcək.

15 iyul 2015-ci il tarixdə Fövqəladə Hallar Nazirliyinin Akademiyası tərəfindən Süleymanov Ayaz Hamlet oğluna verilmiş AA № 054614 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLABATIN MƏSİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3677
Sifariş 94

Qiyməti 60 qəpik